

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında görüş keçirilib



5

# Böyük Qayıdış: Azad Laçın quruculuq meydanında



2

*Prezident İlham Əliyev: "Demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu"*

SƏS

№ 221 (7146)

30 noyabr 2024-cü il.
Qiyməti 60 qəpik

# Bəşəriyyət "ən qorxulu kabus"la təhdid olunur



9

## QİÇS: dünya qoruna bilmir, yaxud qorunmaq istəmir?



8

## Dövlət sirrini qorumaq hansı hallarda pozula bilər?



6

## Stres yeyirik



6

## Aleksey Fenenko: "Ermənistan regionda təhlükəsizliyi pozmaqda davam edir"



15

## Valideyn himayəsindən məhrum olmuş uşaqlara birdəfəlik müavinət veriləcək



16

*1 dekabr Laçın işğaldan azad olundu və öz haqqına qovuşdu. 30 ilə yaxın Ermənistan tərəfindən işğal olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Eləcə də dörd il əvvəl düşmən işğalından azad olunan Laçınımızda. Etiraf etməliyik ki, son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən dörd il ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır.*

# Böyük Qayıdış: Azad Laçın quruculuq meydanında



*Prezident İlham Əliyev: "Demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu"*

Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü", - deyən Prezident bildirib ki, bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi: "Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

Vətən müharibəsinin əhəmiyyəti, mahiyyəti və nəticələri hələ uzun müddət təhlil ediləcəkdir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Prezident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər,





qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.

## "BİZ DÜŞMƏNİ MƏCBUR ETDİK VƏ DÜŞMƏN ARTIQ UÇURUM KƏNARINDA İDİ"

Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci ilin 1 dekabr tarixində xalqa müraciətində Laçın rayonunun işğaldan azad olunmasının tarixi hadisə olduğunu bildirərək belə demişdir: "Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq". Dövlətimizin başçısı döyüş meydanında əldə edilmiş parlaq qələbənin gözəl nəticəyə gətirib çıxardığını və üç rayonumuzun - Ağdam, Kəlbəcər və Laçının bizə qaytarıldığını bildirmişdir: "Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş nazirinin 2020-ci ilin noyabrın 10-da imzaladıqları birgə Bəyanata uyğun olaraq, Ermənistan tərəfindən ərazilərin boşaldılması qrafik üzrə həyata keçirilib. Həmin qrafikə əsasən, dekabrın 1-də Laçın rayonu da erməni işğalından azad edildi. Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan Respublikası baş nazirinin imzaladığı üçtərəfli bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri dekabrın 1-də Laçın rayonuna daxil oldu. Bildiyimiz kimi, Ermənistan tərəfindən Laçının işğalı zamanı 264 nəfər şəhid olmuş, 65 nəfər girov götürülmüş, 103 nəfər əlil olmuşdur. Rayon üzrə 1 yaşdan 16 yaşadək mövcud olan 24374 nəfər uşaqdan 18 nəfəri şəhid, 225 nəfəri əlil olmuş, 1071 nəfəri bir, o cümlədən 31 nəfəri hər iki valideynindən yetim qalmışdır. İşğal ilə əlaqədar rayona 7,1 milyard ABŞ dolları dəyərində ziyan dəymişdir. Laçın rayonunun bizə qaytarılması, əlbəttə ki, tarixi məsələdir, - deyən Prezident vurğulayıb ki, biz 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq: "Əlbəttə, buna sülh yolu ilə qaytarmaq demək olmaz. Biz düşməni məcbur etdik və düşmən artıq uçurum kənarında idi, tamamilə məhv olurdu. Onun başqa yolu yox idi, ya tamamilə məhv olacaqdı, ya da ki, kapitulyasiya aktına imza atacaqdı. Baxın, görün bizim həm hərbi, həm siyasi müstəvidə nə qədər böyük uğurlarımız var".

Laçının işğalı zamanı bu məkanda 50 mindən artıq əhali yaşayırdı. Onların öz doğulduqları yerlərə göndərilməsi əsas məsələlərdən biridir. Təbii ki, işğaldan azad olunan ərazilərimiz kimi Laçın da tamamilə dağıdılıb. " hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq" – deyə Azərbaycan Prezidenti qeyd edib.

Ardı Səh.3












# Böyük Qayıdış: Azad Laçın quruculuq meydanında



Əvvəli-Səh-2

### "LAÇIN RAYONUNDA BİZİM BÖYÜK MEŞƏ SAHƏLƏRİMİZ VAR - ƏRAZİNİN 22 MİN HEKTARI MEŞƏ SAHƏSİDİR"

Xatırladaq ki, Laçın rayonunda 1992-1993-cü tədris ilində - işğal olunana qədər 106 məktəb fəaliyyət göstərib. Məktəblərdə təhsil alan şagirdlərin sayı 8 min 877, müəllimlərin sayı isə 1390 nəfər olub. Laçın rayonda 1 ədəd avtovağzal, 82 avtobus dayanacağı, 2130 km uzunluğunda avtomobil yolları, 92 ədəd körpü, 1187 km uzunluğunda su kəməri, 33 su anbarı, cəmaşırxana, 15 km uzunluğunda mərkəzi kanalizasiya, 20 km uzunluğunda istilik şəbəkəsi, 14 hamam, 8 ədəd yanacaq doldurma stansiyası, 2636 km uzunluğunda elektrik hava xətləri, 498 km uzunluğunda qaz kəməri, 10200 km uzunluğunda radio-telefon kommunikasiya xətləri, 3 ədəd televiziya stansiyası və ötürücülər və sair mövcud olmuşdur. Bütün bunlar dağıdılıb. Ölkəmizin ən böyük rayonlarından biri olan Laçın zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri ilə zəngin olan bir diyardır. Azərbaycanın cənub-qərbində, dağlıq ərazidə yerləşən Laçın şimaldan Kəlbəcər, şərqdən Xocalı, Şuşa və Xocavənd, cənubdan Qubadlı rayonları, qərbdən isə Ermənistanla həmsərhəddir. Rayon respublikamızın təbii sərvətlərilə zəngin guşələrindəndir. Ərazisində dünyada nadir ağac növlərindən hesab olunan qırmızı dəmirağac meşələri, çox sayda mineral su bulaqları, kobalt, uran, civə, qızıl, dəmir, müxtəlif rəngli mərmər yataqları, cürbəcür dərman bitkiləri vardır. Laçın abidələri hələ eramızdan əvvəl I–II minilliyə aid edilən Xocavənd rayonundakı Azıx və Cəbrayıl rayonundakı Tağlar mağaraları ilə müqayisə edilə biləcək qədər dəyərli və nadir abidələrdəndirlər. Buranın təbiəti isə xüsusilə füsünkardır. Dövlət başçısının vurğuladığı kimi, Laçın rayonunda bizim böyük meşə sahələrimiz var - ərazinin 22 min hektarı meşə sahəsidir: "Bu da bizim böyük sərvətimizdir. Kəlbəcər rayonunda 24 min hektar meşə sahəsi vardır. Zəngilan və Qubadlı rayonlarında 12 min hektar və eyni zamanda, işğaldan azad edilmiş Hadrut rayonunda və Xocavənd rayonunun bir hissəsində böyük meşə sahələri vardır. Meşələr isə planetimizin ağ ciyəridir. Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

### ABADLIQ VƏ QURUCULUQ MEYDANI

Böyük Qayıdış proqramı çərçivəsində yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurduna qovuşub. Onlar şəhərdə böyük coşqu ilə qarşılanıblar. Daha da gözəlləşən və abadlaşan Laçına qovuşan sakinlər əzəli yurdda rahat nəfəs alırlar. Köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb. Laçın şəhərində 570 ailə, yəni 2090 nəfərin daimi məskunlaşması təmin edilib. Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları əzəli torpağımıza yol alır. Neçə ilin nisgilini yaşamış insanların bu torpağa dönüşü tarixi hadisə olaraq yaddaşlara köçür. Neçə bahar, neçə qış əzəli torpaqdan uzaq qalan insanlar doğma yurdla görüşürlər. Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən görülən işlər planlı şəkildə həyata keçirilir. 20 il ərzində şəhər əhalisinin sayı 18 min nəfərə çatacaq.

Aparılan genişmiqyaslı quruculuq işləri çərçivəsində 2025-ci ildə Laçında Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır. Bununla yanaşı, rayonun yol-nəqliyyat infrastrukturu yenidən və ən müasir standartlar üzrə qurulur. Güləbird kəndində qısa müddət ərzində inşa edilmiş "Güləbird" Su Elektrik Stansiyası istifadəy verilib. Bu, azad edilmiş torpaqlarda birinci elektrik stansiyasıdır. Erməni qəsbkarlar işğal dövründə bu stansiyanı da darmadağın etmişdilər. İndi təxminən 7000 nəfər əhali elektrik enerjisi təmin olunacaq.

### 20 İL ƏRZİNDƏ ƏHALİ SAYI 18 MİN NƏFƏRƏ ÇATACAQ

Laçının Baş Planına əsasən, 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb. Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək. Baş Plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb. Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. İşğaldan azad olunmuş ərazilərimizin inkişafını daim xüsusi diqqətdə saxlayan Prezident İlham Əliyev Laçın rayonuna səfərləri zamanı dövlətimizin başçısı "Qorçu" və "Laçın" şəhər yarımstansiyalarının, Laçın şəhərində 1 Dekabr, Heydər Əliyev, Zəfər və 28 May, Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişmələrindəki lövhələrin açılışını edib. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Laçın şəhərində əhalinin istirahətinin səmərəli təşkili istiqamətində də tədbirlər həyata keçirilir. Şəhərin giriş hissəsindəki körpünün sol istiqamətində salınan çaykənarı bulvar Laçın sakinlərinin və bura gələn qonaqların sevimli istirahət məkanlarından olacaq. Artıq Həkəri çayında astana və göl yaradılıb. Gölün üzərində asma körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb, kotteclər tikilib.

### UZUN ƏZABLI İLLƏRDƏN SONRA RAHAT YAŞAYIŞ

Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".

31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış olublar.

Vətən müharibəsində qazandığımız Zəfərdən dörd il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar.

Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Bu gün Laçınımız abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qayıdışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

*Nəzakət ƏLƏDDİNQIZI*




# Tatyana Lipskaya: “COP29 dünyada rezonans doğurdu”



***“Sber”-in ESG üzrə baş vitse-prezidenti Tatyana Lipskaya “Kommersant-Review” nəşrinə müsahibəsində BMT-nin İqlim Konfransının COP29 nəticələrindən, Rusiya biznesi üçün qəbul edilən qərarların əhəmiyyətindən və iqlim dəyişikliyinə uyğunlaşmaq üçün yeni texnologiyaların hazırlanmasının zəruriliyindən danışıb.***

**- Bakıda BMT-nin İqlim Konfransı COP29 başa çatıb. Son iki həftə ilə bağlı təəssüratlarınız necədir?**

- Yəqin ki, diqqətimi çəkən ilk şey bu il iştirakçıların geniş təmsil olunması oldu: 198 ölkədən 70 mindən çox insan, həmçinin 80 dövlət və hökumət başçısı. Dünyanın müxtəlif ölkələrindən olan bu qədər sayda iştirakçı iqlimin sərhədləri və geosiyasi məhdudiyyətləri olmadığı tezisini bir daha təsdiqləyir. Baş verən dəyişikliklər hər birimizə təsir edir, ona görə də planetin gələcəyi ilə bağlı ümumi dialoqda qalmaq vacibdir.

Bu proseslərin dünyanın müxtəlif ölkələrinin iqtisadiyyatlarına təsirinə xüsusi diqqət yetirildiyi BMT sammitində iqlim dəyişikliyinin müzakirəsi mərkəzi mövzuya çevrildi. Builki gündəliyin əsas məsələsi iqlim dəyişikliyinin iqtisadi nəticələrinin qiymətləndirilməsi, qabaqlayıcı tədbirlərin işlənib hazırlanması və iqlim tənzimlənməsidir. Rusiyanın konfransda təsdiqlənmiş mövqeyi var idi. Rusiya nümayəndə heyətinin, xüsusən də “Sber”-in nümayəndələri öz sessiyaları, çıxışları və danışıqlar prosesində aşağı gəlirli ölkələrin iqtisadiyyatına zərər vermədən aşağı emissiyalı enerjiyə keçidin, iqlim layihələrinin keyfiyyətinin qiymətləndirilməsi üçün vahid sistemin yaradılmasının zəruriliyindən və dekarbonizasiya və uyğunlaşma üçün effektiv həllər qəbul etmək üçün elmi icmalar arasında əməkdaşlıq qurmaqdan danışıblar. Nəticə etibarı ilə, fikrimcə, qazanılan uğur ondan ibarətdir ki, bizim mövqeyimiz beynəlxalq həmkarlar arasında və COP29-un yekunları üzrə yekun qərarlarda öz əksini tapdı.

Maliyyə baxımından mühüm nailiyyət o oldu ki, konfransın sonunda iqlim maliyyəsi ənənəvi enerji sektoruna qoyulan məhdudiyyətlərlə bağlı deyildi. Bundan əlavə, “Sber” özünün məsuliyyətli maliyyələşdirmə təcrübələri haqqında hesabat təqdim edərək, yaşıl və uyğunlaşma layihələrinə təşviq tənzimləməsinin genişləndirilməsi ilə bağlı Rusiya Bankının təkliflərini dəstəklədi. Bu, bizim üçün vacibdir, çünki biz Rusiya biznesindən belə kreditlər üçün müraciət görürük. Beləliklə, bizim məsuliyyətli maliyyələşdirmə portfelimiz artıq 3,7 trilyon rublu ötüb və gələcəkdə onun daha da artacağını gözləyirik.

**- Sizcə, son COP29-da hansı hadisələr əsas rol oynadı?**

- Tamamlanmış COP29 konfransının əsas nailiyyəti, illik sərmayələri 300 milyard dollara çatdırmağı nəzərdə tutan yeni kollektiv kəmiyyət hədəfinin qəbul edilməsidir və bu, iştirakçılara konsensusa nail olmaq üçün gərgin müzakirələr günlərində əlavə olaraq iki nəfər tələb edir. Təəssüf ki, 2035-ci ilə qədər ildə 1,3 trilyon dollarlıq faktiki tələb yalnız dövlət və özəl mənbələrdən daha çox əlavə maliyyələşdirmə çağırışı kimi yekun COP29 qətnaməsinə daxil edilmişdir. Bu, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasındakı fərqi daha da artırır. Eyni zamanda, qəbul edilən sənəddən hətta bu pulun ayrılması şərtləri də aydın deyil: əvvəllər inkişaf etməkdə olan ölkələr maliyyənin kreditdən daha çox qrant şəklində ayrılmasını tələb edirdilər.

İkinci mühüm nəticə BMT-nin himayəsi altında qlobal karbon bazarının işləməsi üçün standartlara dair razılaşma oldu. Bu standartlar şəffaf karbon ticarəti sistemini və müvafiq registrlərin aparılması üçün vahid qaydaları təmin edir ki, bu da karbon bazarlarının tam işə salınması üçün zəmin yaradır. Əlbəttə ki, hələ də metodologiyalar və reyestr hazırlanmalı, sənədlər və yoxlayıcılar təsdiqlənməlidir, lakin ümid var ki, yaxın gələcəkdə ölkələr arasında ticarət və karbonun tənzimlənməsi mexanizmi tam şəkildə fəaliyyət göstərməyə başlayacaq. Nəhayət, mühüm addım istixana qazlarının tullantılarının azaldılması ilə yanaşı, iqlim dəyişikliyi şəraitində uyğunlaşma tədbirlərinə ehtiyacın rəsmi şəkildə tanınması oldu. Bu aspekt Rusiya nümayəndə heyətinin tədbirlərində əsas müzakirə mövzularından biri idi.

**- Maliyyə və tənzimləmə məsələlərindən əlavə, ölkələr iqlim və ekoloji problemlərin həlli üçün praktiki alətlər haqqında fəal müzakirələr aparıblarmı? Rusiya biznesi bu gün dünyaya nəsə təklif edə bilərmi?**

- COP29-un fərqli xüsusiyyəti ondan ibarətdir ki, ölkələr artıq burada və indi uyğunlaşmanın vacibliyini inkar etmirlər. BMT-nin hesablamalarına görə, 2030-cu ilə qədər uyğunlaşmaya 1,8 trilyon dollar investisiya qoyuluşu 7,1 trilyon dollardan çox xalis fayda gətirə bilər. Bu gün uyğunlaşma zərəri təmir etməkdən daha ucuzdur. Buna görə də 90 ölkədən rəqəmsal texnologiya icması Yaşıl Rəqəmsal Fəaliyyət Planı Bəyannaməsini qəbul etdi. Sənəd iqlim böhranı ilə mübarizədə rəqəmsal texnologiyalardan geniş istifadəni nəzərdə tutur. Qısa və uzunmüddətli iqlim risklərinin azaldılması üçün layihələrin işlənib hazırlanmasına yönəlmiş bir sıra digər mühüm sənədlər də imzalanıb.

Yaşıl texnologiyalar və rəqəmsal həllər uyğunlaşmaya kömək edə bilər. Yaşıl texnologiyaların inkişafı ən böyük Rusiya biznesinin işində prioritet sahələrdən biridir. Bu gün bu, təkcə rəqabət üstünlüyü deyil, həm də iqlim dəyişikliyinin nəticələrinə uyğunlaşmaq üçün effektiv vasitədir. Nümunəmizdən görürük ki, iqlim və ekoloji problemlər üçün rəqəmsal həllər işləyir və iqtisadi effekt verir. Beləliklə, “Sber”in iqlim risklərini qiymətləndirmək üçün süni intellekt modellərindən istifadə etdiyi qənaət təxminən ildə 1 milyard rubl təşkil edir. “Sber” uzun müddətdir ki, özünün və müştərilərinin iqlim risklərini qiymətləndirmək üçün süni intellektdən istifadə edir və 2025-ci ildə özünün Yaşıl Texnologiyalar Laboratoriyasını işə salmağı planlaşdırır.

COP29 çərçivəsində beynəlxalq ekspertlər və mən texnoloji inkişafı və iqlim problemlərini həll etmək üçün qarşılıqlı əlaqə imkanlarını müzakirə etdik. Rusiyada bizim paylaşmağa hazır olduğumuz bir çox perspektivli həllər var və xarici həmkarlarımız onları qəbul edib öz yerli vəzifələrinə uyğunlaşdırmağa hazırdır. Məsələn, biz Azərbaycan, Hindistan, Yaponiya, Rumıniyadan olan beynəlxalq tərəfdaşlarla razılaşdıq ki, onlara iqlim modellərimizi, ağıllı şəhər həllərini, iqlim layihələrini yoxlamaq imkanı və öz karbon vahidlərinin dövriyyəsini təqdim edək.

**- Proqnozlarınıza görə, Braziliyada keçiriləcək COP30-da bizi nə gözləyir?**

- “Bakı konfransı mühüm nəticələr versə də, hələ də əlavə diqqət tələb edən həll olunmamış məsələlər var. Məsələn, 2030-cu ilə qədər qalıq yanacaqların mərhələli şəkildə dayandırılması və bərpa olunan enerji potensialının artırılması üzrə COP28 öhdəliklərini yerinə yetirmək üçün lazım olan xüsusi tədbirlər müəyyən edilməmişdir.

Bundan əlavə, xeyli sayda dövlət ticarət məhdudiyyətlərinin tətbiqi ilə razılaşmadığını bildirir, mən Aİ-nin transsərhəd karbon tənzimlənməsi mexanizmindən danışıram. Bu mövzu, şübhəsiz ki, Braziliyada keçiriləcək danışıqların əsas mövzularından birinə çevriləcək. Həmçinin, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında davam edən gərginliyə də göz yummaq olmaz. Çox güman ki, COP30-da iqlim öhdəliklərinin ədalətli bölüşdürülməsi və inkişaf etməkdə olan dünya üçün maliyyə dəstəyi ilə bağlı müzakirələr yenidən intensivləşəcək. Bununla belə, mən COP30-un mövcud ziddiyyətlərə baxmayaraq, planetimiz üçün davamlı gələcəyə yönəlmiş dialoq və mühüm qərarlar üçün daha da mənalı platformaya çevriləcəyini gözləyirəm.

***V.VƏLİYEV***
***(Tərcümə)***

# YAP Mərkəzi Aparatında görüş keçirilib







***Noyabrın 29-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə cari ilin 13-20 noyabr tarixlərində Çin Xalq Respublikasında (ÇXR) səfərdə olmuş YAP nümayəndə heyətinin ÇXR-in ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Din Tao ilə görüşü keçirilib.***

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov möhkəm dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlıq müstəvisində yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib: "Dövlət başçıları İlham Əliyev və Si Cinpinin siyasi iradələri sayəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu ilə ölkələrarası münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Müasir beynəlxalq münasibətlər sisteminin layiqli və məsuliyyətli üzvü olan hər iki ölkə bütün sahələrdə işbirliyinin dərinləşdirilməsində maraqlıdır və bu istiqamətdə praktiki addımlar atılmaqdadır".

Qarşılıqlı səfərlərin həm ölkələr, həm də partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin qiymətləndirilməsi və əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətinə diqqəti cəlb edən Tahir Budaqov vurğulayıb ki, Azərbaycan-Çin münasibətlərinin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafı xüsusi diqqət mərkəzindədir: "Partiyalarımız arasında fəal siyasi dialoq mövcuddur və qarşılıqlı təmaslar intensiv xarakter daşıyır. Məmnunluqla qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çinə səfəri çərçivəsində kifayət qədər məhsuldar görüşlər keçirildi, əlaqələrin hazırkı durumu və perspektiv imkanlar geniş müzakirə olundu. Xüsusilə də, iki hakim partiya arasında əməkdaşlıq memorandumunun imzalanması tarixi əhəmiyyətə malik olmaqla bərabər, qarşılıqlı inam, hörmət və etimada əsaslanan səmərəli işbirliyinin genişləndirilməsi baxımından böyük önəm kəsb edir. Yeni mərhələdə görüləcək işlər ortaq maraqlarımızı təmin etməklə həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı və perspektivli olacaqdır".

YAP Mərkəzi Aparatının rəhbəri daimi təmasların gənclər arasında da səmərəli ünsiyyətin gücləndirilməsinə, mütəmadi olaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılmasına mühüm töhfə kimi önəmini diqqətə çatdırıb.

Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra YAP İdarə Heyətinin üzvləri, millət vəkilləri Pərvin Kərimzadə, Hikmət Məmmədov, Azər Badamov, Ülviyyə Həmzəyeva, partiyanın Təftiş Komissiyasının üzvü, millət vəkili Elman Nəsirov səfər haqqında təəssüratlarını bölüşüblər.

ÇXR-in ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Din Tao Çinin Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini, iki ölkə liderlərinin səyləri nəticəsində Azərbaycan-Çin münasibətlərinin strateji xarakter daşıyaraq uğurla inkişaf etdiyini söyləyib. O, ÇXR-in Baş nazirin müavini Din Süesənin rəhbərlik etdiyi yüksəksəviyyəli nümayəndə heyəti və min nəfərədək digər iştirakçı ilə Azərbaycanın ev sahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-da təmsil olunduğunu və Bakıda mühüm görüşlərin keçirildiyini xatırladıb. Din Tao bəzi qüvvələrin qarayaxma kampaniyası aparmasına və prosesə manеə törətmək cəhdlərinə baxmayaraq, Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə uğurla ev sahibliyi etməklə dünyaya yeni müsbət nümunə təqdim etdiyini və COP29 çərçivəsində "Bakı Maliyyə Məqsədləri" sənədinin qəbul edilməsinin qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə tarixi əhəmiyyət daşıdığını bildirib. O, Azərbaycanın qlobal müstəvidə belə bir mühüm nailiyyətə imza atması münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın önəmindən bəhs edən Din Tao YAP nümayəndə heyətinin səfərinin uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının nümayəndələrinə təşəkkürünü bildirərək müvəffəqiyyətlər arzulayıb. Görüşdə Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin üçüncü katibi Se Yilin də iştirak edib.

# ABŞ mətbuatı Fransanın və digər Avropa dövlətlərinin müstəmləkə istismarının ekoloji fəsadlarından yazıb

Tanınmış politoloq və jurnalist, Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru Reyçel Avraham baş qərargahı Nyu-Yorkda yerləşən Xarici Siyasət Assosiasiyasının xəbər saytında dərc olunmuş "Müstəmləkə bölgələr üçün iqlim ədaləti vacib şərtdir" başlıqlı məqaləsində Fransa və digər Avropa dövlətlərinin müstəmləkə istismarının ekoloji fəsadlarından yazıb.

AZƏRTAC xəbər verir ki, məqalədə ekoloji vəziyyətin fövqəladə hal alması məhz müstəmləkəçiliyin mirası olaraq səciyyələndirilib. Qlobal Cənubun torpağının və havasının Qlobal Şimalın zibilxanası kimi istifadə olunduğu göstərilib.

Diqqətə çatdırılıb ki, İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel təşkilatı yarandığı otuz ildən artıq müddətdə ilk dəfə olaraq 2022-ci il üzrə hesabatında "müstəmləkəçilik" terminini qeyd edib. Yazıda iqlimşünaslıq sahəsinin aparıcı alimlərinin müstəmləkəçiliyin iqlim böhranında keçmiş və indiki amil olduğunu etiraf etdikləri də bildirilib. Vurğulanıb ki, dünyanın hər yerindən olan məmurlar və elm adamları artıq müstəmləkəçiliyin planetimizin istiləşməsi və onun çoxsaylı nemətlərinin məhvində oynadığı mühüm rolu dərk edir. Müstəmləkəçiliyin zərərlərini aradan qaldırmadan ekoloji ədalətə nail olmaq qeyri-mümkündür.

Müəllif vaxtilə müharibə şəraitindən çıxmış Qarabağ bölgəsinə səfər edərkən erməni köçkünlərinin bölgədə necə ciddi ekoloji böhran yaratdığının şahidi olduğuna diqqət çəkib. Çirklənmiş, balıqsız çayları, kökündən qoparılmış ağacları, yandırılmış əkin sahələrini, minalarla əhatə olunmuş, dağıdılmış minlərlə evi və çuxurlarla dolu torpaq yolları gördüyünü yazıb: "Vəziyyət ekoloji baxımdan o qədər ciddi idi ki, bir vaxtlar gözəl ekosistemi ilə "Qara Bağ" kimi tanınan bölgə otuzillik erməni işğalından sonra "Qafqazın Xirosiması" adlandırıldı".

Yazıda Azərbaycanın Qarabağı yaşıl zona kimi bərpa etdiyi və müstəmləkəçiliyin dağıdıcı nəticələrinin, ətraf mühitə mənfi təsirlərinin şahidi kimi Qlobal Cənubun digər ölkələrini ruhlandırdığı qeyd olunub. Məqalənin sonunda müəllif diqqətçəkən açıqlama verib: "Həqiqətən də Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə erməni köçkün müstəmləkəçiliyi tarixin zibilliyinə atıldı. Digər müstəmləkəçi qüvvələr də tezliklə onun ardınca gedə bilər". Məqaləni linkə keçid etməklə ətraflı şəkildə oxumaq mümkündür.


Foreign Policy Blogs

Foreign Policy Association

RSS subscribe | Follow us on Twitter | Join us on Facebook

SEARCH THE SITE...

DEFENSE & SECURITY | THE EU | NUCLEAR | MEDIA AND FOREIGN POLICY | TRADE | U.S. FOREIGN POLICY | REGIONS | MORE TOPICS

Climate Justice an Imperative for Colonized Regions

by Rachel Avraham | on November 25th, 2024 | 0 Comments UNCATEGORIZED



As we speak, millions of people who live in the Global South are experiencing the harsh reality of climate change, even though it was the Global North who disproportionately caused the problem. Since the Industrial Revolution in the late 1700s, human beings have been the primary drivers of changes in the Earth's climate. Countries that greatly benefitted from industrialization, e.g., America, the UK, Japan, Germany, etc., did so at the cost of pumping more and more carbon into the atmosphere. China and India are the only countries in the Global South, who have greatly contributed to climate change. Most of the main polluters are in the Global North.

Between 1850 and 2011, the United States and EU were responsible for 79% of climate-changing emissions. However, the countries expected to suffer the most from climate change are all in the Global South and are not top contributors to the problem. One of

Author Rachel Avraham

Rachel Avraham is the CEO of the Dona Gracia Center for Diplomacy and the editor of the Economic Peace Center, which was established by Ayoob Kara, who served as Israel's Communication, Cyber and Satellite Minister. For close to a decade, she has been an Israel-based journalist, specializing in radical Islam, abuses of human rights and minority rights, counter-terrorism, the Israeli-Palestinian conflict, Azerbaijan, Syria, Iran, and other issues of importance. Avraham is the author of "Women and Jihad: Debating Palestinian Female Suicide Bombings in the American, Israeli and Arab Media," a ground-breaking book endorsed by Former Israel Consul General Yitzchak Ben Gad and Israeli Communications Minister Ayoob Kara that discusses how the media exploits the life stories of Palestinian female terrorists in order to justify wanton acts of violence. Avraham has an MA in Middle Eastern Studies from Ben-Gurion University. She received her BA in Government and Politics with minors in Jewish Studies and Middle Eastern Studies from the University of Maryland at College Park.

Read all of Rachel Avraham's Posts ›

# Dövlət sirrini qorumaq hansı hallarda pozula bilər?



MÜNASİBƏT

"Dövlət sirri yeni dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlardır". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, Vəkillərin intizam komissiyasının üzvü Vəkil Elvin Əliyev deyib.

O bildirib ki, dövlət sirrinin yayılması qanunsuzdur və cinayət qanunvericiliyinin müddəalarına əsasən həmin cinayət əməlini törətmiş şəxsi ağır cəza gözləyir: "Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284.1-ci maddəsinə əsasən şəxs tərəfindən ona etibar edilmiş və ya xidməti vəzifəsinə və yaxud işinə görə ona məlum olan dövlət sirrini təşkil edən məlumatların yayılması, dövlətə xəyanət əlamətləri olmadıqda — üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



284.2. Eyni əməllər ağır nəticələrə səbəb olduqda - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Dövlət sirri ilə işləməyə buraxılma - vətəndaşların dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa, müəssisə, idarə və təşkilatların isə belə məlumatlardan istifadə etməklə işlərin icrasına buraxılması hüququnun rəsmiləşdirilməsi qaydasıdır. Dövlət sirri ilə işləməyə, bir qayda olaraq, Azərbaycan Respublikasının vətəndaşları buraxılırlar. Dövlət sirri təşkil edən məlumatlarla tanış olmağa səlahiyyətli vəzifəli şəxsin icazəsi ilə konkret şəxs və ya şəxslər buraxıla bilər. Dövlət sirri təşkil edən məlumatların siyahısı Dövlət sirri haqqında Azərbaycan Respublikasının qanunvericiliyində göstərilmişdir".

"Həmin qanunun tələbinə əsasən Dövlət sirri təşkil edən məlumatların digər dövlətlərə və beynəlxalq təşkilatlara verilməsi haqqında qərarı müvafiq icra hakimiyyəti orqanı belə məlumatların verilməsinin mümkünlüyü haqqında müvafiq icra hakimiyyəti orqanının ekspert rəyi olduqda qəbul edir. Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanununun tələbinə əsasən Vəzifəli şəxsin və vətəndaşın ona etibar ediləcək dövlət sirri təşkil edən məlumatları yaymayacağı barədə dövlət qarşısında götürdüyü öhdəliyi onunla işəgötürən arasında bağlanan əmək müqaviləsində, işə (xidmətə) qəbul əmək müqaviləsi ilə həyata keçirilmədikdə isə iltizamnamədə əks olunur. Dövlət sirri ilə işləməyə buraxılışı olmayan şəxsin dövlət sirrindən istifadə ilə bağlı vəzifəyə təyin edilməsinə yol verilmir. Həmçinin vəzifəli şəxsi və ya vətəndaşı dövlət sirri ilə işləməyə buraxmaqdan qanunvericilikdə nəzərdə tutulmuş əsaslar olduqda imtina edilə bilər" - deyə o, əlavə edib.

**Söylü Ağazadə**

# "Azərbaycan dünyada sabit və dayanıqlı iqtisadiyyatı olan ölkələrdəndir"

***"Azərbaycan dünyada sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan ölkələrdəndir. Qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə qlobal layihələr uğurla icra edilir. Azərbaycanın iqtisadi güc və beynəlxalq nüfuzu artdıqca Cənubi Qafqazın və digər regionların iqtisadi mənzərəsinin dəyişməsində təşəbbüskar ölkə kimi çıxış edir. Bu layihələrin uğurla həyata keçirilməsi Azərbaycanı dünya iqtisadiyyatında söz sahibinə çevirir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.***



Deputat qeyd edib ki, regionların sosial-iqtisadi inkişafı ilə bağlı bu günə qədər 4 dövlət proqramı həyata keçirilib: "İcra olunan dövlət proqramlarının nəticələri müsbətdir. Yeni rəqəmlər görülən işin nəticə verdiyini deməyə əsas yaradır. İcra olunan dövlət proqramlarının nəticələrini qənaətbəxş hesab etmək olar. Bunu 2024-cü il üzrə dövlət büdcə zərfində nəzərdə tutulan rayonlara vəsaitlərin ayrılmasında da bunu açıq şəkildə görmək mümkündür. Belə ki, digər bölgələrlə bərabər işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına dövlətimizin maliyyə vəsaitləri ilə çox möhtəşəm layihələr icra edilib. Beynəlxalq və respublika əhəmiyyətli yolların salınması, yeni dəmiryolu xətlərinin inşası, inzibati binaların tikintisi, məcburi köçkün əhalimiz üçün salınan şəhər və qəsəbələrə vətəndaşlarımızın köçürülməsi 2024-cü ildə həyata keçirilən işlər sırasındadır. Dövlətimizin prioritetlərindən biri iqtisadiyyatın balanslı inkişafının dəstəklənməsi və regionlarla paytaxt arasındakı iqtisadi fərqin mərhələli şəkildə azaldılmasıdır. Regionlara daha çox sərmayə cəlbinin təşviq edilməsi zərurətdir. Bu və digər məqamların 2024-2028-ci il üzrə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında öz əksini tapacağına inanırıq. Regionların sosial-iqtisadi inkişafı ilk növbədə kənd təsərrüfatı məhsullarının istehsalında artıma səbəb olur ki, bu da yeni iş yerlərinin yaranmasına, eyni zamanda rayonlardan paytaxta axının qarşısını ciddi şəkildə almağa kömək edir. "Yaşıl dünya naminə həmrəylik ili" olan 2024-cü ildə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası da daxil olmaqla ölkənin bütün ərazisində yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetə çevrilib. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir".

**Səbinə Hüseynli**



**Mətanət Məmmədova**

# Stres yeyirik

***Bu gün toyuq istehsalının hansı qaydada həyata keçirildiyindən əlbəttə, hər kəsin xəbəri yoxdur. Olanlar isə çox yaxşı bilir ki, biz toyuq əti yeyərkən, əslində stres yeyirik. Nəinki toyuq əti, həmin toyuqların yumurtası da bizə əsl yumurtanın tərkibində olanları deyil, yalnız stres verir.***

Broyler olanda, nə olar ki? Nədir bu heyvanların günahı ki, onları belə şəraitdə saxlayırlar. Toyuğu Allah-təala yaradanda onu çöl-bayır, həyət-baca üçün yaradıb ki, gəzsin, dolansın, həm qidasındakı zəngin elementləri torpağın altından dimdikləsin, həm də təmiz havada yaşasın. Lakin biz insanlar toyuğa Tanrı tərəfindən bəxş olunan həyatı onun əlindən almışıq. Çox toyuq yetişdirmək, çoxlu toyuq əti istehsal etmək üçün böyük şəhərlərin içindəcə toyuqçuluq təsərrüfatları yaratmışıq. Yaradanda nə olar ki, bunu geniş sahədə etmək olmaz? Əlbəttə, olar.

Əvvəl əslində geniş bir ərazidə qurduğumuz bu kimi təsərrüfatlar sonralar tamahımız ucbatından kiçilməyə başlayır. Yəni daha çox toyuq yetişdirmək istəyimiz, tamahımız bu yazıq heyvanların yerini əlindən alır. Bu, o həddə çatır ki, toyuqlar ayaqlarını qoymağa yer tapmayıb, bir-birinin belində dayanırlar.

Hərdən onların həyatı ilə bağlı videolarla rastlaşanda, sözün həqiqi mənasında, çox narahatlıq keçirirəm. Düşünürəm ki, toyuqların da xoşbəxti, bədbəxti olurmuş. Məsələn, kənd toyuqları necə də xoşbəxt yaranmışlar. Yerləri geniş, istədikləri vaxt gəzir, dolaşır, istədikəri vaxt hinə qayıdır, istədikləri vaxt yumurtlayırlar.

Lakin broylerdə Tanrı tərəfindən toyuqlara verilən yumurtlama xüsusiyyətinə də dəyişiklik etmişik. Onların gecə və gündüzünü əllərindən alıb, çaş-baş salmışıq. Gündüz çirkli pəncərələrdən sızan gün işığı, gecələr isə elektrik lampaları bu yazıq toyuqlara işgəncədir. Onlar sahibkarların diktəsi ilə həyatda yalnız gündüz olduğunu düşünür və dayanmadan-durmadan zamansız şəkildə yumurtlayırlar. Nədir, nədir ki, sahibkarlar daha çox yumurta satıb varlansın. Təsərrüfatını daha da genişləndirsin, milyonlarla manat gəlir əldə etsin, toyuqların bədbəxtliyi üzərində özünə səadət qursun. Maşınlarda gəzsin, təmtəraqlı evlərdə yaşasın.

Belədir, bəli, toyuq biznesi quranların hər biri başqalarından fərqli yaşayır. Bunu hamı bilir. Arada isə toyuqların həyatı məhv olur. Onlar dünyaya gəldiklərinə peşman olurlar. Əlacsız qalıb stresdən bir-birinin başını dimdikləyir, al-qana qərq edirlər.

Toyuq biznesi ilə məşğul olanların qurbanı tək toyuqlar deyil, həm də insanlardır. Onların stres altında saxladığı toyuq və onların yumurtalarından istifadə edən insanlar da elə bilməyin ki, toyuq və yumurta yeyir. Onlar yalnız stres yeyirlər. Çünki yediyimiz toyuq və yumurtanın mayası stresdən yoğrulur.

Çox təəssüf ki, belə qorxunc şəraitdə istehsal olunan toyuq əti digər ət növlərindən ucuz olduğu üçün ölkədə minlərlə insanın ən çox istifadə etdiyi qida məhsuludur. Kənd yumurtasını gündüz çıraq işığı ilə axtarmalı olduğumuz bir dövrdə broyler yumurtasını bizə gəzən toyuq, nə bilim ferma toyuğu, bir də broyler toyuğu adı ilə müxtəlif qiymətlərə satan market və mağaza sahibləri də toyuqçuluq təsərrüfatı sahibləri ilə əlbir şəkildə bu "siyasəti" həyata keçirir.

Onlar qazanır: həm toyuqdan, həm yumurtadan. Biz sadə insanlar istə itiririk: həm toyuq, həm də onun yumurtasın yeməklə. Çünki yediyimiz yalnız stresdir. Sonra da deyirik ki, küçədə-bacada, ictimai nəqliyyatda nə üçün insanlar bu qədər əsəbidir; bu uşağa, bu kişiyə, bu qadına söz demək mümkün deyil, o saat özündən çıxır. Əsəbi olacaqlar da, yedikləri stresdir.

**Son 21 ildə Cənab İlham Əliyevin apardığı məqsədyönlü müdrik xarici siyasət nəticəsində dünyada Azərbaycanla dostluq, müttəfiqlik münasibətləri quran dövlətlərin sayı artıb. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin məntiqi nəticəsidir.**



# Azərbaycandan Albaniyaya dost təbriki!

*Prezident İlham Əliyev: "Qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur"*

Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin Albaniya Respublikasının Prezidenti Bayram Beqaya Albaniya Respublikasının milli bayramı münasibətilə ünvanladığı təbriki dövlətlərarası əlaqələrin möhkəm təməl üzərində davamlılığına əsaslanır. Dövlətimizin başçısı "Qarşılıqlı inam və dəstəyə əsaslanan tərəfdaşlığımızın möhkəmlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımızı xüsusi qeyd etmək istərdim. Fəal siyasi dialoqumuz bütün sahələrdə birgə fəaliyyətimizi daha da genişləndirmək üçün yaxşı zəmin yaradır", - deyə təbrikində qeyd edib: "Son dövr ərzində həyata keçirilmiş ali səviyyəli qarşılıqlı səfərlər dövlətlərarası əlaqələrimizin və əməkdaşlığımızın inkişafına yeni təkan vermişdir. Əminəm ki, Azərbaycan-Albaniya dostluq münasibətlərini inkişaf etdirmək və möhkəmləndirmək, ikitərəfli və çoxtərəfli qaydada işbirliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik".

### "AZƏRBAYCANLA ALBANİYA YAXIN DOST VƏ QARDAŞ ÖLKƏLƏR OLARAQ BİR YERDƏ İŞLƏYİR"

Dünya dövlətləri ilə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. Müxtəlif sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın yaranmasına və davamlı olmasına öz təsirini göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Hazırda Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri həqiqətən də parlaqdır". Dövlət başçısı qeyd edib ki, çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var.

Xatırladaq ki, 2022-ci ilin noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına ilk səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan münasibətlərin, dialoqun daha da inkişafına təkan oldu. Dövlət başçısının bu səfəri dövlətlərarası münasibətlərin daha da inkişafına, xalqlar arasında əməkdaşlığın genişləndirilməsinə müsbət təsirini göstərir. "Biz çox sıx dostluq münasibətləri qurmuşuq və Azərbaycanla Albaniya arasında yüksək səviyyədə siyasi dialoqun çox yaxşı dinamikası var", - deyən Cənab Prezident bunun ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm amil olduğunu söyləyib. Hər iki dövlətin beynəlxalq təşkilatlarda fəal çalışdığını qeyd edən Cənab Prezident qeyd edib ki, ilk növbədə Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk: "Eyni zamanda, biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq".

### ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ İQTİSADİ ƏLAQƏLƏRİN ƏSAS İSTİQAMƏTİDİR

Ölkələr arasında bir çox məsələlərlə bağlı əməkdaşlıq mövcuddur. İqtisadi sahədə Azərbaycan və Albaniya arasında 2016-2017-ci illərdə ticarət əlaqələrində canlanma müşahidə edilib. İki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin geniş potensiala malik olması baxımından tərəflər bu sahədə əməkdaşlığın inkişafı məqsədilə birgə səyləri artırmağı məqsədəuyğun hesab edirlər. Enerji sahəsində əməkdaşlıq isə iqtisadi əlaqələrimizin əsas istiqamətidir. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin həyata keçirilməsi strateji əhəmiyyət daşıyır və hər iki ölkə bu istiqamətdə uğurla əməkdaşlıq edib. Bütün bunlarla yanaşı, Albaniya Azərbaycan tərəfinin ölkənin enerji infrastrukturunda aktiv iştirakında maraqlıdır. Albaniyanın yüksək səviyyəli rəsmiləri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə veriblər. Albaniya TAP vasitəsilə Cənub Qaz Dəhlizinin iştirakçısıdır və TAP layihəsi üzrə Hökumətlərarası Saziş 2013-cü ilin fevral ayında Albaniya, İtaliya və Yunanıstan dövlətləri arasında imzalanmış və 2016-cı ilin mart ayından tikinti işləri başlayıb. 2020-ci ilin dekabrın 31-də TAP boru kəməri vasitəsilə kommersiya qazının nəqlinə başlanılıb. TAP layihəsinin həyata keçirilməsi çərçivəsində Albaniya öz tranzit imkanlarından faydalanması ilə yanaşı, layihənin icrası Albaniyada məşğulluğun artmasına böyük töhfə verib. Albaniya Azərbaycan tərəfinin ölkənin enerji infrastrukturunda aktiv iştirakında maraqlıdır. Albaniyanın yüksək səviyyəli rəsmiləri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə veriblər. Hər iki dövlət Cənub Qaz Dəhlizinin icrasında müstəsna rol oynayıblar.

### GÜCLÜ TƏRƏFDAŞLIQ: REGİONAL TƏHLÜKƏSİZLİK VƏ SABİTLİK

Bildiyimiz kimi, Azərbaycanla NATO arasında güclü tərəfdaşlıq əlaqələri regional təhlükəsizlik və sabitlik məsələlərində mühüm rola malikdir. Bu əməkdaşlıq getdikcə daha da möhkəmlənir. Albaniya da NATO-nun üzvü kimi NATO - Azərbaycan əlaqələrinə həmişə böyük dəstək vermişdir.

Məlumdur ki, 2022-ci ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb. Həm Albaniya, həm də Azərbaycan ikitərəfli iqtisadi əməkdaşlığın, o cümlədən energetika sahəsində daha da inkişaf etdirilməsinə maraq göstərir. 2021-ci ildə Albaniya Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,95 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 0,66 milyon dollar, ixracın həcmi 4,29 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə müsbət 3,63 milyon dollar olub. 2022-ci ilin yanvar-sentyabr aylarında Albaniya Azərbaycanın 86-cı xarici ticarət tərəfdaşı olub. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 1,45 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 1,14 milyon dollar, ixracın həcmi 0,31 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə mənfi 0,83 milyon dollar olub.

Göründüyü kimi, möhkəm təməl üzərində qurulan münasibətlər əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək, dövrün çağırışlarına cavab olaraq müsbət təsirini göstərəcəkdir

***Zümrüd BAYRAMOVA***

# QİÇS: dünya qoruna bilmir, yaxud qorunmaq istəmir?

## 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü fonunda acı gerçəklər

QİÇS dünyanın bütün ölkələrində var və böyük sürətlə də artmaqda davam edir. Belə hesab edilir ki, hər il yoluxmuş və xəstə şəxslərin sayı 2 dəfə artır. Xəstəlik XX əsrin 50-ci illərində Mərkəzi Afrikada başlayıb və yeni mutant virus yerli əhaliyə meymunlardan keçib. Afrikadan isə xəstəlik Haiti adalarına, sonra isə Amerika və Qərbi Avropaya yayılıb.

Qazanılmış İmmun Çatışmazlığı Sindromu bütün dünyada çox geniş yayılmaqda olan, müasir təbabət elminin və səhiyyənin, o cümlədən də dünya birliyinin ən qlobal problemlərindən hesab edilən bir patologiyadır. Virus mənşəli infeksion xəstəlik olan QİÇS immun sistemin tam depressiyasına, infeksiyalara qarşı orqanizmin ümumi müqavimətinin kəskin zəifləməsinə, onkoloji xəstəliklərin inkişafına və s. bu kimi ağır vəziyyətlərə gətirib çıxarır ki, bütün bunlar da ölümlə nəticələnir.



Xəstəliyin adı, əslində, HİV – Human İmmunodeficiency Virus, yəni İİV – İnsan İmmunçatışmazlıq Virusudur. QİÇS isə bu infeskiyanın sonunda, onun ağırlaşması və son nəticəsi kimi meydana çıxan bir əlamətdir. Lakin bu infeksiyanın ilk dəfə öyrənildiyi vaxtdan etibarən onun adına QİÇS deyildiyi üçün bu günə qədər də bu xəstəliyin adlandırılmasında bu terimindən istifadə edilir. Xəstəlik 1981-ci ildə kaliforniyalı həkim Maykl Hotlib tərəfindən ABŞ-da homoseksuallar arasında aşkar olunub.

İİV/QİÇS ilk aşkar edildiyi 1980-ci illərdən bəri, din, dil, irq, cinsiyyət və ölkə ayrı-seçkiliyi olmadan sürətlə yayılaraq ölkə iqtisadiyyatına böyük zərər verir, səhiyyə xərclərini külli miqdarda artırır. Hələ effektiv peyvəndi olmayan HİV/AİDS-lə mübarizənin ən təsirli yolu bu virusun ötürülmə yollarını bilməklə effektiv şəkildə qorunmaqdır.



Birləşmiş Millətlər Təşkilatının HİV/AİDS üzrə Birgə Proqramının (UNAIDS) hesabatında bildirilir ki, 2021-ci ildə İİV-ə yoluxanların sayı təxminən 38,4 milyon nəfər olub. 2022-ci il hesabatına əsasən, 2021-ci ildə dünyada 650 min insan İİV/AİDS-lə bağlı səbəblərdən dünyasını dəyişib, 1,5 milyon insan isə İİV-ə yoluxub. Hesabatda 2023-cü ildə qlobal miqyasda 630 000 insan QİÇS ilə əlaqəli xəstəliklərdən öldüyü bildirilir. QİÇS-in ilk aşkar edildiyi vaxtdan – 1980-ci ildən bəri bu xəstəlikdən 42,3 milyon insan ölüb.

İİV/QİÇS-lə bağlı əhalinin maarifləndirilməsi məqsədilə 1988-ci ildən 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü kimi qəbul edilir. Qlobal sağlamlıq kampaniyası olan Ümumdünya QİÇS-lə Mübarizə Günü Ümumdünya Səhiyyə Təşkilatı "Bərabərliyi təmin et" mövzusunda tədbirlər keçirir. 1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü xəstəliyin tanınması, erkən diaqnoz, erkən müalicə və effektiv qoruyucu tədbirlər üçün xəbərdarlıq rolunu oynayır.

QİÇS-lə bağlı ölümlər 2004-cü ildə pik həddinə çatdıqdan sonra 2010-cu ilədək 69%, 2010-cu ildən isə 51% azalıb. 2004-cü ildə 2,1 milyon və 2010-cu ildə 1,3 milyon insan olduğu halda, 2023-cü ildə dünya üzrə təxminən 630 000 insan QİÇS-lə əlaqəli xəstəliklərdən ölüb. 2025-ci il üçün hədəf 250 000-dən azdır. 2010-cu ildən bəri QİÇS-lə bağlı ölüm halları qadınlar və qızlar arasında 56%, kişilər və oğlanlar arasında isə 47% azalıb. 2023-cü ildə dəqiqədə bir nəfər HİV-dən ölür.

QİÇS-ə cinsi əlaqə zamanı qoruyuculardan istifadə etmədikdə, narkomanlar arasında eyni şprisdən istifadə zamanı, tatuaj zamanı eyni iynə ilə bir neçə nəfər tatu olunduqda, QİÇS-li ana uşağını əmizdirdikdə və qan köçürmə zamanı yoluxurlar.

UNAIDS-in bu ilin iyul ayında açıqladığı son hesabatda bildirilir ki, kritik anda dünya liderlərinin 2030-cu ilə qədər QİÇS-i ictimai sağlamlıq təhlükəsi kimi aradan qaldırmaq öhdəliyinə əməl edib-etmədiyi araşdırılacaq. Bildirilir ki, 2023-cü ildə İİV üçün mövcud olan ümumi resurslar (19,8 milyard ABŞ dolları) 2022-ci ilə nisbətən 5% azalıb və 2025-ci ilə qədər tələb olunan məbləğdən (29,3 milyard ABŞ dolları) 9,5 milyard ABŞ dolları az olub. HİV üçün ümumi resursların 59%-ni təşkil edən aşağı və orta gəlirli ölkələrdə daxili maliyyələşdirmə borc böhranı ilə məhdudlaşdırılır. 2022-ci ildən 2023-cü ilə qədər 6% azalma ilə artıq ardıcıl dördüncü ildir ki, maliyyə azalır.

Azərbaycanda ilk dəfə İİV infeksiyası 1987-ci ildə aşkar edilib. Ölkəmizdə bu infeksiya yoluxma əsasən yüksək riskli qruplar arasında yayılıb. Hazırda Respublika QİÇS-lə Mübarizə Mərkəzində 8202 İİV-lə yaşayan Azərbaycan vətəndaşı rəsmi qeydiyyatdadır. Onlardan 5704-i (69,6%) kişi, 2498-i (30,4%) qadındır. 2022-ci ildə Qazanılmış İmmun Çatışmazlığı Sindromu ilə daha 89 nəfər qeydə alınıb.

Vətəndaşlar arasında 1987-2022-ci illərdə aşkar olunan İİV-ə yoluxma hallarının 36,7 faizi inyeksion narkotik istifadəsi nəticəsində,52,5 faizində heteroseksual, 4,3 faizində homoseksual kontakt nəticəsində, 1,6 faizində anadan uşağa keçməklə, 0,01 faizində (1 nəfər) donor qanının köçürülməsi nəticəsində baş verib. 4,9 faizində yoluxma yolu müəyyən edilməyib.




2023-cü ildə həyatında ilk dəfə təyin olunmuş diaqnozla İnsanın İmmunçatışmazlığı Virusunun (İİV) törətdiyi xəstəliklə 886, Qazanılmış İmmunçatışmazlığı Sindromu (QİÇS) virusunun törətdiyi xəstəliklə 169 nəfər qeydə alınıb. 2023-cü ilin sonuna olan məlumata görə tibb müəssisələrində qeydiyyatda olan İİV xəstələrinin sayı 10692, QİÇS xəstələrinin sayı isə 2844 nəfərdir. Tibb müəssisələrində qeydiyyatda olan QİÇS xəstələrindən 22 nəfər 0-17 yaş aralığında olan şəxslərdirlər.



İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında Azərbaycan Respublikasinin Qanunu var. 2010-cu ildə qəbul edilən bu Qanun Azərbaycan Respublikası ərazisində insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin profilaktikasının, diaqnostikasının, müalicəsinin, İİV-lə yaşayan şəxslərə tibbi və sosial-psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanunundan, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

İİV infeksiyası ilə mübarizə üzrə milli strategiyanın və dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsini nəzərdə tutan qanun, İİV infeksiyası ilə mübarizə üzrə xidmətlərin ölkənin bütün ərazisində təşkilinin təmin edilməsini təmin edir. Bura, əhalinin İİV infeksiyası və onunla mübarizə sahəsində hərtərəfli məlumatlandırılması və maarifləndirilməsi, yüksək riskli əhali qrupları arasında İİV infeksiyasının səmərəli profilaktikası üzrə kompleks tədbirlərin həyata keçirilməsi də daxildir.

İİV olan şəxslərin tibbi müayinəsinin anonimliyinə və konfidensiallığına təminat verilir, İİV-li insanın tibbi müayinəsinin dövlət tibb müəssisələrində pulsuz həyata keçirilməsi, tibbi müayinənin testdən əvvəl və testdən sonrakı psixososial məsləhətlərlə müşayiət olunması, tibbi müayinənin məlumatlandırılmış razılıq əsasında həyata keçirilməsi və xəstəliklə mübarizə sahəsində epidemioloji nəzarət, monitorinq və qiymətləndirilmə sisteminin təşkili, tibbi prosedurların, eləcə də diaqnostik, müalicəvi və elmi məqsədlərlə istifadə olunan qanın, qan komponentlərinin, digər bioloji mayelərin, orqan və toxumaların təhlükəsizliyinin təmin edilməsini dəstəkləyən qanun yoluxma riski olan tibb işçilərinin və digər mütəxəssislərin təhlükəsiz əmək şəraiti ilə və zəruri qoruyucu vasitələrlə təmin edilməsini də təmin edir.

İİV-in anadan uşağa ötürülməsinin profilaktikasının təmin edilməsi, İİV-lə yaşayan şəxslərin və İİV infeksiyasından zərər çəkmiş şəxslərin qanunvericiliklə müəyyən edilmiş qaydada sosial müdafiəsi, mütəxəssislərin hazırlanması, tibb işçilərinin bilik və bacarıqlarının artırılması üçün şəraitin yaradılması da bu qanunla tənzimlənir.

Bütün dünyada olduğu kimi, ölkəmizdə də İİV/QİÇS-in yayılmasının məhdudlaşdırılması, hətta dayandırılması, ilk növbədə, yoluxma yolları və qorunma yolları haqqında cəmiyyətin maarifləndirilməsi ilə mümkün olacaq.

***Lalə Mehralı***

***Bu gün dünyamız heç zaman olmadığı, üzləşmədiyi ən ağır fəlakətli dövrünü yaşayır. Çünki dünyanın elə bir bölgəsi yoxdur ki, orada müharibələr, münaqişələr, vətəndaş qarşıdurmaları baş verməsi. Sanki bir otağın əsas hissəsi alova qərq olub. Alovu söndürmək haqqında düşünən də yoxdur.***

# Bəşəriyyət "ən qorxulu kabus"la təhdid olunur

## *Atom bombası tətbiq olunsa, dünyanın heç bir ölkəsi və xalqı fəlakətdən xilas ola bilməyəcək*





Baxmayaraq ki, həmin alovun bir qədər də genişlənməsi onların olduğu, dayandıqları məkanı da əhatə edəcək. Bunla belə hikkə, iddia, qatı düşmənçilik hissi, başlıcasısı, insan qətillərinə, kütləvi ölümlərə, şəhər və qəsəbələrin xarabazarlığa çevrilməsinə, həvəsli olan və özlərini böyük siyasətçi adlandıran dövlət başçıları qapılarının ağzında olan alovu ram etmək istəmirlər. Ən təhlükəlisi isə atom bombasından istifadə ediləcəyi barədə tez-tez hədələr eşidilir. Kimlərdi o hədələri edən? Təbii ki, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında aparıcı rola malik olduqlarını iddia edən dövlət başçıları. Bu baxımdan demək olar ki, dünyamızın sabahı sual altındadır. Hər an beyni pozulmuş lider, ağlı başında olmayan siyasətçi atom bombasından istifadə etməklə dünyanın varlığına son qoya bilər. Dünən bir daha Rusiya hakim zümrəsi ABŞ-ı, Avropanı nüvə silahı ilə hədələdi. Avropanın Fransa kimi nasizmin tədricən inkişaf etməyə başladı dövlət də atom bombasından istifadə etməkdə tərəddüd etməyəcəklərini bəyan ediblər. Nəzərə almaq lazımdır ki, Rusiya prezidenti nüvə silahına arxalanaraq " Rusiyasız dünya bizim nəyimizə lazımdır" deyə bildirmişdir. 2022-ci ilin fevralından Ukraynaya qarşı başladığı müharibə minlərlə insanın həyatını itirməsi, yüzlərlə şəhərin , kənd və qəsəbənin dağıdılması, milyonlarla insanın öz isti ev-eşiyini tərk etməsi ilə nəticələndi. Demək olar ki, Ukrayna ərazisinin az qala 70 faizi dağılıb, 20 milyon insan müxtəlif ölkələrə köç ediblər. İtkilərinin sayı da hər iki tərəfdən milyonu keçir.

### 800 000 əsgər Rusiyaya qarşı döyüşmək üçün Ukraynaya göndəriləcək

Rusiya-Ukrayna müharibəsi davam edir. Hər gün yüzlərlə insan ölür, kənd və şəhərlər dağıdılır. Vəziyyətin daha da ağırlaşacağı proqnozlaşdırılır. Çünki Fransa, Böyük Britaniya və Almaniya Ukraynaya ordu göndərmək niyyətində olduqlarını bəyan ediblər. Almaniya kansleri O.Şolts isə daha dəqiq rəqəmlə çıxış edib. O bildirib ki, NATO bayrağı altında 800 000 min əsgər Rusiyaya qarşı döyüşmək üçün Ukraynaya göndəriləcək. Hələlik isə Avropa və ABŞ-ın razılığından sonra Ukrayna tərəfi Rusiyanın dərinliklərini raketlə vurur. Buna cavab olaraq Rusiyada Ukraynaya qitələrarası balistik raketlə zərbələr endirir. Bunla kifayətlənməyən Rusiya Ukraynanı və rəsmi Kiyevin müttəfiqlərini nüvə silahının tətbiqi ilə hədələyir. Rusiya Təhlükəsizlik Şurasının (TŞ) sədri Dmitri Medvedev nüvə silahından istifadə riskinin yüksək olduğunu və NATO hərbi bazalarına zərbələr endirmək ehtimalının olduğunu açıqlayıb. Rusiya Təhlükəsizlik Şurasının (TŞ) sədri Dmitri Medvedev daha açıq mətnlə çıxış edib. O bildirib ki, Rusiyanın atom silahından istifadə etmək riski yüksəkdir. O ilk növbədə Fransanın, Polşa və Ruminiyanın əsas hədəf seçilə biləcəyini istisna etmədiyini açıqlayıb: "Hazırda münaqişə eskalasiya ssenarisi üzrə inkişaf edərsə, heç nəyi istisna etmək olmaz. Çünki NATO-ya daxil olan dövlətlər əslində bu münaqişəyə tam şəkildə qoşulublar".

Dünyanı düşündürən bir sual var: Atom bombasından istifadə edilərsə, bəşəriyyətin aqibəti necə olacaq? Birmənalı şəkildə cavab olaraq qeyd etmək olar ki, nüvə silahından istifadə edilməsi dünyanın sonu olacaq. Çünki nüvə dövlətlərindən hər hansı biri arsenalına daxil olan nüvə başlıqlarından müharibədə istifadə edərsə, o zaman böyük iqlim fəlakətləri, faciəvi nəticələr, elmi dildə deyildiyi kimi "nüvə qışına" səbəb olacaq. Hətta kiçik miqyasda və cəmi 2-3 dəfə atılacaq nüvə raketi regionda yüzlərlə yanğın törədəcək ki, yanğınlardan strotosferə atılan qazlar Günəş işığını blok edib, planetimizin böyük qismində "Qış alatoranlığı" yaradacaq. Atom bombasının tətbiqi ilə insanlar tüstü və zəhərli hava ilə nəfəs almağa məcbur olmaqla bərabər həm də içməli su tapa bilməyəcəklər. Yəni içməli su təminatı tamamilə məhv ola bilər. Bu fəlakətdən heç bir ölkə və xalq xilas ola bilməyəcək. Çünki insanlar partlayışı olan yerlərdən uzaqda yaşasalar da "nüvə qışı"nın təsirini yaşamalı olacaq.

### ABŞ nüvə silahı ilə bəşəriyyəti təhdid edir

Müasir tibb hər nə qədər inkişaf etsə də, nüvə partlayışının fəsadları qarşısında çox acizdir. Aparılan araşdırmalara görə, dünyada 14,995 ədəd nüvə silahı var. Hər bir nüvə dövləti bu qorxulu silahla dünyanı qorxu altında saxlamağa çalışırlar. Hazırda dünya üzərində nüvə silahı sınaqlarını uğurlu şəkildə tamamlamış 8 dövlət mövcuddur. Rusiyanın 7000 nüvə bombası, ABŞ-ın 6800 nüvə bombası, Fransanın 300 nüvə bombası, Çinin 270 nüvə bombası, İngiltərənin 215 nüvə bombası, Pakistanın 140 nüvə bombası, Hindistanın 130 nüvə bombası, İsrailin 80 nüvə bombası, Şimali Koreyanın 60 nüvə bombası var. İlk dəfə atom bombasından ABŞ Yaponiyaya qarşı istifadə edib. ABŞ 1945-ci ilin avqustun 6-da Yaponiyanın Xirosima şəhərinə, 9 avqust 1945-ci ildə Naqasaki şəhərinə isə ikinci atom bombasını atıb Nəticədə 450 min insan həyatını itirib, yüz minlərlə insan yaralandı və psixoloji təsirləndi. Xirosima üzərinə dünyanın ilk hücum atom bombası olan Little Boy atılarkən bomba yerə düşdükdən 45 saniyə sonra sensorlarından gələn məlumatlara uyğun olaraq atəş mexanizmini işə salıb. Partlayıcı maddələr sayəsində bir-birindən ayrı yerləşdirilən Uran 235 (U-235) izotopunun kütləri bir-biri ilə toqquşub. Bu toqquşmadan sonra parçalanma reaksiyalarının partlayışa səbəb olacağı kritik kütlə aşılıb. ABŞ vəhşi və qəddar əməllərinə görə, dünya xalqlarından üzr istəməkdənsə, insanlığa yönələn soyqımı əməllərinə daha da genişləndirib. Nəticə də ABŞ 1952-ci ildə atom bombasından daha təsirli və dağıdıcı bir silah olan hidrogen bombasını yaradıb. İlk bomba 1954-cü ildə Sakit okeandakı Marşal adalarına atılaraq sınaqdan keçirilib. Bu bomba Xirosima və Naqasakiyə atılan bombalardan 1000 qat daha çox dağıdıcı gücə sahib olub. Nüvə sahəsində SSRİ də ABŞ-dan geri qalmayıb və 1961-ci ildə istehsal etdiyi "Çar Bomba" adlı ilk hidrogen bombasını sınaqdan keçirib. SSRİ-nin malik olduğu bomba Xirosimaya atılan bombadan 3800 dəfə güclü olub. Hətta 1961-ci ilin 30 oktyabrında Novaya Zemlyada həyata keçirilən sınaq zamanı yaranan alov topu 965 km aralıdan görünüb.

### Atom bombası kosmosun sıradan çıxmasına gətirib çıxara bilər



Hərbi ekspertlərin qeyd etdiyi məlumata görə, atom bombasının partlayışı zamanı əmələ gələn radiasiya kosmosda saniyədə 200.000 km-ə yaxın sürətlə hərəkət edən qamma şüaları, neytronlar, elektronlar və daha bir neçə atomaltı zərrəciklərdən ibarət olur. Atom bombası partladıqdan sonra istilik, şok dalğaları və radiasiya vasitəsilə ətrafa ziyan vurur. Parçalanma reaksiyası diametri iki yüz metrdən çox olan alov topunu yaratdı. Atəş kürəsi yaranan kimi ətrafa istilik və işıq yaymağa başladı. Partlayışın ilk anlarında od kürəsi ultrabənövşəyi, infraqırmızı və görünən dalğa uzunluqlarında radiasiya yayırdı. Bu yüksək enerjili işıq (termal şüalanma) insanlara və ya cisimlərə dəydikdə udulur və sürətlə qızdırılır. Qızdırılan qaz kütləsinin diametri böyüyür və ətrafa müxtəlif şüalar yayılır. Bu şüalar onlarla kilometr uzaqda olan hər hansı bir insanda korluğa səbəb ola biləcəək "başlanğıc parıltı"sını meydana gətirir. Bu parlaq işıq Günəş səthindən yayılan işıqdan yüzlərlə qat daha böyükdür. Partlayış anından başlayaraq keçən zaman elə qısadır ki, partlayışın yaxınında olan adam gözlərini qırpmağa belə vaxt tapa bilmir. Partlayışdan 2 saniyə sonra parlayan kütlə və onu əhatə edən hava alov topu meydana gətirir. Səthi çox isti və Günəşdəki qədər, hətta ondan da parlaq olan bu alov topundan yayılan istilik 4-5 km sahədəki bütün yana bilən maddələri alovlandırmağa kifayət edir. Partlayışdan 6 saniyə sonra şok dalğası yerə dəyir və ilk mexaniki zərərlərə səbəb olur. Dalğa şiddətli hava təzyiqi yaradır və bu təzyiqin şiddəti partlayış mərkəzindən uzaqlaşdıqca azalır. Bu yerdən təxminən 1,5 km uzaqda belə təzyiq normal atmosfer təzyiqindən təxminən iki qat artıq olur. Bu təzyiqdə insanların sağ qalma ehtimalı 1%-dir.13 saniyə sonra şok dalğası yayılır və onu alov topunun qovduğu havanın yer dəyişdirməsi səbəbindən yaranan partlayış izləyir.

### Nüvə silahından imtina edilməsinə nə mane olur?

Dünyada nüvə silahının ləğvi ilə bağlı bəzi dövlət rəhbərləri, xüsusilə də atom bombasının ağır nəticələrini yaşamış Yaponiya çox cəhdlər edib, təşəbbüslər göstərib. Lakin dünya Yaponiya hakimiyyətinin, o cümlədən dünyada sülhün və təhlükəsizliyin tərəfdarı olan dövlətlərin, xalqların istəkləri baş tutmayıb. Düzdür, 1987-ci ildə aparılan intensiv danışıqlar nəticəsində Rusiya və ABŞ Orta və qısa mənzilli raketlər haqqında Müqavilənin imzalanmasına nail oldular. 3 yanvar 1993-cü ildə isə Rusiya və ABŞ strateji hücum silahlarının daha da azaldılması və məhdudlaşdırılması haqqında razılığa gəldilər. Sənəd 2008-ci ilə qədər tərəflərin döyüş başlıqlarının ümumi sayının 3500 ədədə qədər azaldılmasını, həmçinin çoxsaylı döyüş başlıqlarına malik, qurudan atılan qitələrarası ballistik raketlərin məhv edilməsini nəzərdə tuturdu. Müqavilə də əks olunan müddəalara görə, böyük nüvə dövlətlərinin nüvə arsenalının demək olar ki, yarıya qədər azaldılmasını nəzərdə tuturdu. Rusiya və ABŞ strateji buraxılış sistemlərindəki döyüş başlıqlarının sayını 3000-3500-ə, dəniz bazalı ballistik raketlərdəki döyüş başlıqlarının sayını 1750-yə endirməyi öhdələrinə götürdülər.

Müqavilə 1996-cı ildə ABŞ Konqresi, 2000-ci ildə isə Rusiya Federasiyasının Federal Məclisi tərəfindən ratifikasiya edilib. Lakin insanlığa, bəşəriyyətə qarşı yırtıcı xislətlərini davam etdirmək niyyətindən əl çəkmək fikrində olmayan dövlətlər, xüsusilə də ABŞ 2002-ci ildə ABŞ SHS-2-nin bağlı olduğu 1972-ci il ABM Müqaviləsindən çıxdı. Rusiyada ABŞ-ın atdığı addıma cavab olaraq 2002-ci ilin iyununda SHS-2-dən çıxdığını elan edib. Sonradan, yəni 2017-ci ildə BMT- yə üzv olan 122 dövlət tərəfindən Nüvə Silahlarının Ləğvi Barədə Müqavilə sənədini qəbul etməyə nail oldu. Sənəddə nüvə silahı ilə bağlı istənilən fəaliyyəti qadağan edən hərtərəfli tədbirlər əksini tapıb. Müqavilə nüvə silahının istənilən istifadəsini beynəlxalq humanitar qanunvericiliyin prinsip və qaydalarının pozulması kimi müəyyən edir. Sənəd 50 ölkə tərəfindən rəsmən qəbul edilib. Lakin nüvə silahına malik olan ABŞ, Rusiya, Fransa, Böyük Britaniya və digər nüvə silahına malik dövlətlər həmin müqaviləni imzalamaqdan imtina edirlər. Səbəbi də aydındır. Onların yaranışı sakit, sabit dünyaya qarşı olmaq, qayğısız, sülh və əmin-amanlıq şəraitində həyat sürmək istəyən dinc insanlara qarşı düşmən kəsilmək olub.

***İLHAM ƏLİYEV***

Təhlil






# İki payızın bir yazı...

Bir ömrü iki payızın arasına sığdırmışdı Uca Tanrım. O ömür ki payızda başlamışdı, payızda da bitdi. Bu payız günlərinin birində müsahib olduğum payızın özü ilə "Yolayrıcında söhbət"imizdə xatırlamışdıq həmin ömrü yenidən. Məmməd Araz yurdu Nursu kəndini üç hissəyə – aşağı, orta və yuxarı məhəllələrə bölən yolayrıcında. Yaşıl yosunu bozarmış dağların, xəzan yelinin taqətini ağaclardan üzdüyü yarpaqları, düzlərin otunu – avarını sovurub bir küncünə topladığı dərələrin soluxmuş rənglərinin müşayiətilə üz tutmuşdum orta məhəlləyə – Məmməd Arazın doğulduğu, uşaqlıq çağları keçən məhəlləyə.

Göz baxdıqca uzanan dərələrin sonsuz dərinliklərində küləyin vıyıldayıb yalçın qayalara çırpılaraq ətrafda əks-səda verən səsində həzin bir ayrılıq nəğməsi duyulur. Bu, ömrünün tamamına sayılı günlər qalan payızın özünə bəstələdiyi ayrılıq nəğməsidirmi, yoxsa illər öncə "Yazda ölüm asan olur, Allah, yaza saxla məni", – deyən Məmməd Arazı yaza qısqanan payızın onu öz ağuşunda yeni bir dünyanın sakininə çevirərkən bu sarsıdıcı ayrılığa həsr etdiyi nəğmədirmi? Yox, bu nəğmə iki payızın arasındakı bir yazın gülünəçiçəyinə, axarına-baxarına, rənglərinə heyranlıq, çağlamasına, coşmasına qısqanclıq nəğməsidir. İki payızın arasındakı yaza, bahara – Məmməd Araz ömrünə, yaradıcılığına qibtədən yaranan ayrılıq nəğməsidir

Yolboyu dinlədiyim bu nəğmə zirvəsi buludlarla qonşu olan dağların sinəsinə yayıldıqca şairin "Zirvəsində qanad açdım, ətəyində süfrə açdım, qoyub gəldim gözüyaşlı, dağlar çətin qala mənsiz" misraları da qarışır bu nəğməyə. Yolboyu mənə yoldaşlıq edən bu vüqarlı dağlardan ilham alıb cavab verirəm şairə: – Bu dağlar sənsiz qalmazdı, təsəllisi sən olmasaydın, ey dağlar şairi, dağ vüqarlı şair. Dağı poetikləşdirdikcə, lirikanın, şeiriyyətin baş qəhrəmanına çevirdikcə dağlar səni duydu, əyilmədi, ərimədi, əzəmətdən düşmədi. Dağ ulu baba, dağ ata oldu şeirlərində. Dağ kiçilib övlad oldu, yenidən böyüdü şeirlərində. Bax, beləcə, sənsiz qala bildi.

İkicə addımlığındayam "Atlanam qonşunun qara damından, köhnə daxmamızı görəm yuxuda", – deyən şairin ata ocağının. Bu ata yurdunda İnfil kişinin qara suvağına əllərinin izi düşən köhnə daxmanın yerində indi ikimərtəbəli yaraşıqlı ev ucalsa da, bu əzəmətli bina mənim gözümdə balacalaşıb Məmməd Arazın doğulduğu, uşaqlığından xatirələr hopan kiçik daxmaya çevrilir. Ətrafında payızın ayrılıq nəğməsi ilə ağaclardan ehmalca enib üst-üstə yığılan, içinə girsən, bəlkə də, dizədək qalxan xəzan yarpaqlarının arasında kəndi qədər kiçik bir daxma. Bu daxmada od var, ocaq var, bir də müqəddəslik var...

Çırpısı tətikdə, odunu dəmdə,
Səhərin gözündən od alıb ocaq,
Yanır aram-aram, onu sinəmdə
Sonra kim söndürüb, kim yandıracaq?

–deyən şair, ata ocağı, onun odu-alovu ilə qovrulan köksündə o odu sənin şeiriyyətin yandırdı. Bu od sönməyəcək ki, kimsə yandırsın. O od sevgidir, bu xalqın şairinə istəyi, məhəbbətidir. O od odluqdan lap çoxdan çıxıb, məşələ dönüb, əbədi bir məşələ...





Payız nə gözəl müsahibdir Məmməd Araz haqqında. O payızdan bu payıza – 91 il əvvəlki oktyabrdan 91 il sonrakı dekabrın arasına bahar yeniliyi, yaradıcılığı, təravəti, qayəsi sığan 71 illik ömürdən söhbət açır.

Əlli il! Bəsimdir, orta bir ömür,
Taleyin hökmü də baxtını bilir.
Ulduzlar qocalır,
Ulduzlar ölür.
Mən nəyəm? Zərrənin milyonda biri.

– deyib 50 yaşla vədələşən, "Vay odu – olasan yataq yorğunu, vay odu – vədinə ölüm gecikə" söyləyən şairin alın yazısı onun vədinə xilaf çıxır. 50 ilin üstünə 21 il də qoyub onu həyatın acılı-şirinli günlərindən keçirərək 71 yaşında bir payız günü ömrün son mənzilinə yolçu edir.

İnfil kişinin, Cahan xanımın nəfəslərinin istisi, bir-birlərinə olan sevgisi ilə qurulan, beş övladlarını böyütdükləri bu kiçik daxmadan çıxan Məmməd İbrahim vurğun olduğu Araz qədər böyüsə də, coşub, kükrəsə də, hələ atasının verdiyi Məmməd adına Araz yükünü yükləsə də, bu daxmanı unutmurdu. Elə unutmurdu ki, yuxularından da çıxmırdı. Məncə, bu, ona görə idi ki, həmin daxmada onun alnına şairlik yazılmışdı. Bu daxmada bir Vətənin, bir millətin ürəkdən yanana çevrilmişdi. Bu daxmada hələ o doğulanda Məmməd Araz doğulmuşdu...

...Mən nəyəm? Zərrənin milyonda biri deyirdin, Məmməd Araz. Xeyr, sən zərrənin milyonda biri yox, milyonda bir zərrə idin. Milyonlarda olmayan Vətən, millət, yurd sevgisi vardı qəlbində. Vətən qələmində ən dəyərli söz, qəlbində "Nəğmə" idi – "Azəri nəğməsi". Bu dünyadan köçənədək "Millət yolu haqqın yolu, ucal, millət bayrağı, Vətən andı xalqın yolu, yaşa, Vətən torpağı", – deyib millətini xoş sabah sorağında keşikdə durmağa, qandan, qandaldan uzaq bir dünya qurmağa çağırdın. Araz şeirinin "pərisi" oldu. Ömrün boyu "Araz yadıma düşüb", "Araz üstə çinar gördüm", "Arazın işıqları"nda "Yenə Arazı gördüm" dedin, dedin... Sən bir Azərbaycan sevdalısı doğuldun, yaşadın, "Azərbaycan, dünyam mənim" deyə-deyə ana yurdun hər daşına üz qoydun.

Azəri eşqin Vətən hüdudlarını aşıb türk soydaşımız, sənin haqqında söylədiyi sözlərlə ürəyimizi titrədən Salih Okumuşun "Çağdaş Azərbaycan şairi Məmməd Araz" adlı doktorluq dissertasiyasına çevrilib, onu ədəbiyyatşünas-alim də etdi. Müəllif eyniadlı kitabında yazır: "Məmməd Arazın sirri bir insan ömrünün bir şair ömrünə qurban verilməsi bahasına ortaya çıxmışdır. O, olduğu kimi görünən, göründüyü kimi olmağa çalışan bir şairdir. Azərbaycan torpağını Arazsız təsəvvür etmək mümkün olmadığı kimi, bugünkü Azərbaycan şeirini də Məmməd Arazsız düşünmək mümkün deyil. Məmməd Araz bütün Azərbaycan deməkdir. O Azərbaycan ki şairin ifadəsi ilə "qayalarda bitən bir çiçək, çiçəklərin içində qaya"dır".

"Məndən bu dünyaya nə qaldı görən?" – deyən şair, sənin dünyan Vətənin, Vətənə qalan isə sözün idi – dəyərli, kəsərli, düşündürən, təsir edən sözün...

Bu dünyam Vətənin xəritəsidir,
O, göz dağlayası, göz örtəsidir.
Şeir, söz səhəri, söz ertəsidir,
Vətənə qaldısa, yada qalmadı.

Milyonlarda olmayan yangı vardı qəlbində, Məmməd Araz. Lirika, romantika, şeiriyyət fəlsəfəsi vardı içində. Sən torpaq şairi, dağ şairi, təbiəti şeirə gətirən şairsən. Qəlbindəki çırpıntını, hərarəti şeirə çevirən, həqiqəti şeiriyyətə gətirən şairsən. "Məhəbbətin öz yeri var", – deyib məhəbbəti şeirə gətirən şairsən. "Göy altında, yer üstündə" "Necə yaşadımsa..." söyləyən, "Əgər mən özümlə üz-üzə gəlsəm" "Şair, nə qazandın?" sualına "Hesabat" verən şairsən.

"Yolçu, yolun haradı?" soruşub, "Qoşulum sənə bəlkə, birləşib çıraq olduq, yolu itənə bəlkə" dedin. Yolçu səni yoldaş etməyəndə ürəyinə üz tutub "Mənə biganəlik öyrət, ürəyim!" deyib "Qıvrılım içimdə, yatım içimdə. Yaxşını yamandan seçə bilməyim, büdrəyim, yıxılım, batım içimdə" arzuladın. Lakin biganəlik hara, sən hara, şair. Nə qıvrıla, yata, nə də büdrəyə bilməzdin. Əksinə, yuxusuz gecələrinə özün şam oldun, yandın, əridin. Çünki səni vurğunu olduğun təbiət belə yetirmişdi: millət fədaisi, Vətən sevdalısı, söz cəfakeşi

Elə bu düşüncələrlə də geri qayıdanda, yolayrıcına çatanda "Nursuya gələsən, Məmməd Arazın ev-muzeyinə baş çəkməmiş geri qayıdasan, həm də şairin anım günü ərəfəsində, doğru olmaz", – deyib üz tutmuşdum yuxarı məhəlləyə. Gözəlliyinə bir az da payız rənglərinin qatılıb başqa aləm yaratdığı yuxarı məhəlləboyu sənin muzeyinə doğru addımladıqca "Nə bilim" şeirinə bəstələnmiş mahnını dodaqaltı zümzümə edirdim:

Səndən mənə bir ömürlük xatirə,
Məndən sənə nə qalacaq, nə bilim?..

Bu misraların cavabını kəndin ən yüksək və mənzərəli yerində, şairin xatirəsinə yaradılan muzeydə tapıram: Səndən bu dünyaya böyük bir irs qalıb – ədəbi toplu, bənzərsiz poeziya, doyumsuz lirika. Vərəqləndikcə hələ neçə-neçə nəsilləri "qidalandıracaq", milli-mənəvi ruhuna çökə biləcək, sanki bu gün üçün yazılıbmış kimi təsir edəcək bir irs.

Xalq şairinin adına layiq muzeyi gəzib, şairin həyat və yaradıcılığı ilə bir daha tanış olandan, şəxsi və muzeyə hədiyyə olunan əşyalara, fotoşəkillərə tamaşa edəndən sonra bir daha iki payızın bir yazının – Məmməd Araz baharının əsl xəzinə, hələ də tam aşkarlanmamış bir xəzinə olduğunu düşüncələrinə dalmışdım da...

Bayırda axşamçağının sazağında hələ də ayrılıq nəğməsini oxuyan payızın müşayiətilə geri qayıdarkən "Nə bilim"in növbəti misrası yenə də dilimdə idi:

Bu oyunda kim uduzdu, kim uddu?

Bu oyunda sən uddun, Məmməd Araz. Mənimsə bu misraya cavabım belədir: – Həqiqətən də, oyunlardan ibarət həyata sən poeziyanla, duyğularınla, cəsarətinlə qalib gəldin, Məmməd Araz...

***Mətanət Məmmədova***

# Tehranın manevr imkanları daralır

## *İranın xarici işlər naziri Abbas Əraqçi Tehranın nüvə silahı yaratmaq potensialına malik olduğunu iddia edir*



Cümə günü Cenevrədə İran xarici işlər nazirinin müavini Məcid Təxt-Rəvançinin başçılıq etdiyi nümayəndə heyəti ilə Avropa üçlüyünün (Böyük Britaniya, Almaniya və Fransa) nümayəndələri arasında görüş keçiriləcək. Gündəmdə nüvə problemi ilə yanaşı, sanksiyalar rejimi mövzusu da var. Tehran üçün Donald Trampın ABŞ prezidenti seçilməsi çox xoşagəlməz hadisə idi. İranın xarici işlər naziri Abbas Əraqçi Qərbi ölkənin nüvə bombası yaratmağa davam edə biləcəyi ilə hədələyib. Ancaq bu, daha bir neçə il çəkə bilər. Ona görə də çox güman ki, rejim güzəştə getməli olacaq.

İran nümayəndə heyətinin gedişi ərəfəsində Əraqçi Britaniya mətbuatına müsahibə verib və bildirib ki, Tehrana qarşı sanksiyalar rejimi yumşalmasa, İran cəmiyyəti nüvə silahı yaratmaq barədə ciddi düşünəcək. İslam Respublikası xarici işlər nazirliyinin rəhbərinin narazılığına daha çox Cenevrədəki mühüm danışıqlar ərəfəsində Avropa Atom Enerjisi Agentliyinin müfəttişlərinin İrandakı nüvə obyektlərinə baş çəkmələri səbəb olub. Lakin iranlılar onları bir sıra yerlərə buraxmayıblar.

Nəticədə atom idarəsinin idarə heyəti Tehranı qınamaq qərarına gəlib. Əraqçi deyib ki, MAQATE rəhbəri Rafael Qrossi müfəttişlərə prinsipcə icazə verildiyi və Tehran uranın zənginləşdirilməsini 60%-lə məhdudlaşdırmağa razı olduğu üçün belə bir qərar qəbul etməyəcəyinə söz verib. Əraqçi Avropa nümayəndələrinin hərəkətlərini "qarşıdurma kursu" adlandırıb. Bu arada iranlılar son prezident seçkilərində Məsud Pazeşkiana üstünlük veriblər ki, bu da xalqın Qərblə danışıqlar və kompromis axtarışı lehinə seçimi kimi şərh olundu.

Avropa Tehran və Vaşinqton arasında əsas müzakirəçi ola bilər. ABŞ sanksiyalarının artması və JCPOA (Birgə Kompleks Fəaliyyət Planı) böhranından əvvəl Qərb şirkətləri İslam Respublikasında fəal idi. Lakin son vaxtlar Tehrana münasibət müsbətə



doğru dəyişməyib. Və Donald Trampın ABŞ prezidenti seçilməsi iranlılar üçün yaxşı heç nə vəd etmir, nə də İsrailin baş naziri Benyamin Netanyahunun problemlə bağlı fikirləri.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun baş elmi işçisi Vladimir Sajin hesab edir ki, İran iki ay ərzində uranın zənginləşdirilməsini 90%-ə çatdırmaq iqtidarında olsa da, Tehrana silah yaratmaq üçün hələ çox vaxt lazımdır. "Həqiqətən, onlar uranı qaz vəziyyətinə gətirə bilərlər, lakin bir şarj cihazı yaratmaq daha çox səy tələb edəcək. Bundan əlavə, İslam Respublikasının müvafiq aviasiyası yoxdur, bu o deməkdir ki, o, güclü döyüş başlığı yaratmalı olacaq. Bütün bunlar ümumilikdə iki il çəkə bilər", - ekspert hesab edir. Bununla belə, o vurğulayıb ki, İran son illərdə nüvə enerjisində əhəmiyyətli sıçrayışlar edib. JCPOA sazişinə qayıtmağı qeyri-mümkün edən budur.

İranın vəziyyəti digər, daha az sevindirici amillərlə də mürəkkəbdir. İsrail mahiyyətcə HƏMAS-ı və ən əsası Hizbullahı məğlub edib. Əgər Həmas sünni təşkilatıdırsa, baxmayaraq ki, İran tərəfindən dəstəklənir, o zaman bir çox ekspertlər Hizbullahı ümumiyyətlə İran silahlı qüvvələrinin bir hissəsi hesab edirlər. "Açıq desək, atəşkəslə bağlı hər şey İsrailin qələbəsi kimi görünür. Üstəlik, indi Netanyahu İran problemi ilə məşğul ola bilər. Aprel ayına qədər ölkələr arasında gərginlik o həddə çatmırdı ki, tərəflər raket zərbələri endirsinlər", - Sajin izah edir. Tehranın hədələdiyi nüvə bombasını yaratmaq kifayət qədər uzun vaxt aparacaq. Gizlətmək çətin olacaq və Netanyahu və Tramp İranla qətiyyətlə qarşıdurmaya hazırdır.

"Əgər Tramp İran problemini İsrailin baş nazirinin öhdəsinə buraxmaq qərarına gəlsə, nüvə obyektlərinə birbaşa zərbə endirilməsi tamamilə mümkün ssenaridir. İndiyədək Cozef Bayden bunun qarşısını alıb. Şübhəsiz ki, cümə günü Avropa təmsilçiləri iranlıları güzəştə getməyin lazım olduğuna inandırmağa çalışacaqlar. Hələlik Tramp administrasiyaya ən çox İsrailyönlü və İran əleyhinə olan nümayəndələri təyin edir. Onun mövqeyini yumşaltmasından əsər-əlamət yoxdur. O, sövdələşməyə hazırdır, ancaq öz şərtləri ilə", - Sajin deyir. O xatırladıb ki, Tramp yəhudi dövləti üçün çox şey edib: o, İbrahim razılaşmalarının təşəbbüskarı olub, israillilər üçün Qolan təpələrini tanıyıb, səfirliyi Qüdsə köçürüb.

**V.VƏLİYEV**






*"Son dövrlər ən çox verilən suallar içərisində şiddət motivli olan filmlərin və ya digər janrlarda çəkilən istər cizgi filmlərin, istərsə də filmlərin uşaq psixologiyasına təsiri haqqındadır.*

# "Valideynlər uşaqları xüsusi nəzarətdə saxlamalıdır"

Bəli, bu kimi işlərdə mesajların birbaşa verilməyib dolayı yolla şüuraltına məlumatlar göndərildiyinin şahidi ola bilirik. Bu qeyd etdiyim kimi, baxdığımız kino, serial, reklamlarda və cigi filmlərində ola bilər. Buna başqa adla filmlər vasitəsilə subliminal mesajların verilməsi və ya 25-ci kadr da deyilir". Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, Uzman-Klinik psixoloq Narınc Rüstəmova deyib. O bildirib ki, şüuraltımızı gün ərzində gördüklərimizin, eşitdiklərimizin yığıldığı depo kimi də təsəvvür edə bilərik. Bu mesajlar vasitəsilə insanlara yaxşı və ya pis məlumatlar şüuraltı vasitəsilə ötürülə bilir.

Burada sual ortaya çıxa bilər ki, bu mesajlar, şüuraltımıza ötürülən məlumatlar bizim həyatımıza necə təsir edir? Eyni zamanda cizgi filmləri vasitəsilə uşaqlara ötürülən mesajlar onların psixoloji vəziyyətinə necə təsir edə bilər?

Bildirmək lazımdır ki, döyüş səhnələri, qan tökülməsi, aqressiv kadrlar və s. bu mövzuda olan istənilən cizgi filmi və ya kino kadrları uşaq psixologiyasına təsirsiz ötüşmür. Bu mövzulu filmlər davamlı baxan uaqların davranışında dəyişikliklər baş verir, onların travma almasına səbəb olur. Qızlarda və oğlanlarda fərqli şəkildə təzahür edə bilər, ancaq başlıca olaraq cinsindən aslı olmayaraq uşaqlarda aqressiya, şiddət göstərmək halları arta bilir. Xüsusilə, 3-8 yaş arası uşaqlarda bu məqama diqqət etmək lazımdır.

Davamlı belə kadrlı film və cizgi filmlərinə baxan uşaqlarda bir müddət sonra fobiyalar, qorxular da özünü göstərir. Məsələn: gecə yatanda birdən ayılıb qorxudan ağlamaları, qışqırmaları və ya tək qalanda qorxmaları bu hallar sırasındadır. Bir sözlə düzgün seçilməyən və uyğun olmayan məzmumlu cizgi filmləri uşqalrın əxlaqına və davranışına mənfi təsir edir. Ona görə də, valideynlər uşaqları xüsusi nəzarətdə saxlamalı və kabus, qorxu mövzusunda olan cizgi filmlərinə, bu kimi müxtəlif kadrlar baxmasına icazə verməməlidir. Daha çox onların yaşına uyğun, öyrədici, nağılvari və qısa müddət ərzində yekunlaşan cigi filmlərinə övladları ilə birlikdə baxmaları məqsədə uyğundur".

**Səbinə Hüseynli**

# 30 noyabr Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günüdür






***Azərbaycanda həyata keçirilən dövlət siyasəti, reallaşan dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkəmizi müasir məkana çevirməklə yanaşı, onun dünyada tanıdılmasına geniş imkanlar açıb. Mövcud inkişaf nəticəsində müasirləşən, modernləşən Azərbaycan innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi dünayda özünəməxsus yer qazanıb. Azərbaycanda informasiya təhlükəsizliyi təmin olunub.***

İnformasiya təhlükəsizliyi məsələləri Azərbaycan Respublikasının milli təhlükəsizliyinin əsas tərkib hissələrindən biridir. Bu sahədə normativ-hüquqi bazanın formalaşması informasiya cəmiyyəti quruculuğunda prioritet məsələlər sırasındadır. Azərbaycanda informasiya təhlükəsizliyinin təmin edilməsinin qanunvericilik bazasının formalaşdırılması və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm qanunlar, normativ aktlar qəbul edilib. Ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan informasiya-kommunikasiya texnologiyalarının inkişafı qabarıq şəkildə nəzərə çarpır. Azərbaycan Respublikasında informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsindəki fəaliyyət Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Ulu Öndərin 2003-cü ildə təsdiq etdiyi "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" bu istiqamətin ölkəmiz üçün vacibliyini və əhəmiyyətini vurğulayan ilk rəsmi sənəd olmuşdur. Müasir dövrdə və gələcək perspektivdə İKT-nin əhəmiyyəti ön plana keçir. Müasir informasiya texnologiyaları ölkənin hərtərəfli inkişafı, əhalinin intellektinin yüksəldilməsi, həmçinin dünyada baş verən inteqrasiya proseslərinə daha aktiv cəlb olunması istiqamətində respublikamızın qarşısında yeni imkanlar açır.

Bu sahədə əlaqədar qurumlar tərəfindən konseptual, təşkilati, elmi-metodoloji, qanunvericilik, maddi-texniki əsasların yaradılması üzrə iş aparılır. İnformasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin sosial-iqtisadi həyatına geniş nüfuz etdiyindən, müstəqil Azərbaycanın qarşısında duran mühüm vəzifələrdən biri də, məhz qlobal informasiya məkanında



layiqli yer tutması və inteqrasiyası idi.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev, ölkəmizin bütün sahələrinə olduğu kimi, informasiya-kommunikasiya texnologiyaları sahəsinin inkişafına da önəm verərək, bu sahənin inkişafına yönəlmiş dövlət proqramları və zəruri islahatları həyata keçirməyə başladı.

## ELEKTRON HÖKUMƏTİN İNKİŞAFI

30 noyabr tarixində dünyanın bir parçası olan Azərbaycanda Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü qeyd olunur. Bu gün 1988-ci ilin 30 noyabr tarixindən keçirilir. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla, ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə Morris "soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan, təxminən, 100 milyon dollar həcmində qiymətləndirilmişdir. Morris "soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi, həqiqətən də, çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də, dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq, informasiya cəmiyyəti inkişaf etdikcə, bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq, 1988-ci ildə Kompyuter Avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi günü elan etdi. Bütün dünyada olduğu kimi, Azərbaycanda da bu gün qeyd olunur.

Ölkəmizdə həyata keçirilən dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu göstərən "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında ölkə başçısının məlum Sərəncamı milli strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi, respublikanın informasiya cəmiyyətinə keçidinin təmin edilməsi baxımından əhəmiyyəti rol oynadı. Görülən işlərin məntiqi olaraq, artıq ölkəmizdə elektron hökumətin yaradılması, informasiya təhlükəsizliyi və digər məsələlərin həlli istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanı ölkəmizdə, nəinki elektron hökumətin inkişafı, həm də korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsində mühüm rol oynadı. Təbii ki, elektron xidmətlər, eyni zamanda, korrupsiya hallarının qarşısının alınması və şəffaflığın təmin edilməsinin effektiv vasitələrindən biri kimi qiymətləndirilir.

## CƏMİYYƏTİN ŞƏFFAFLIĞI

Bu gün əbəs deyil ki, İKT respublikada korrupsiya ilə mübarizə, cəmiyyətdə şəffaflığın və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Ölkədə "Elektron hökumət" portalı fəaliyyət göstərir və bu portala qoşulmuş dövlət qurumlarının elektron xidmətlərinin "bir pəncərə" prinsipi əsasında əhaliyə təqdimi də görülən işlərin məntiqi davamıdır. Bütün bunlarla yanaşı, vətəndaşlara xidmətlərin daha keyfiyyətli, rahat, vahid məkandan və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradıldı ki, bu da, qısa müddətdə özünü doğrultdu.

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin prioritet elan olunması, 2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları bu sahənin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin əyani sübutudur.

## "HƏR BIR ÖLKƏNİN UĞURLU, DAYANIQLI İNKİŞAFI ÜÇÜN İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SAHƏSİ HƏLLEDİCİ ROL OYNAYACAQDIR"

Azərbaycanda İKT-nin inkişafı ilə bağlı ən prioritet sahələrdən biri olan kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində qısa bir zamanda mühüm addımlar atılıb. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

Azərbaycan, Avropa və Amerika mütəxəssislərinin birgə səylərinin nəticəsi olan, amma Azərbaycan adı ilə ərsəyə gələn, Azərbaycan bayrağının təsviri ilə kosmosa göndərilən "Azərspase-1" telekommunikasiya peykinin orbitə çıxarılması ölkəmizin daha bir nailiyyəti kimi tarixə düşdü. Azərbaycan həyatında tarixi hadisəyə çevrilən ilk telekommunikasiya peyki "Azerspace-1" və yer səthinin müşahidə peyki "Azersky"in orbitə çıxarılması Azərbaycanın kosmik ölkələr sırasında yer alması ilə nəticələndi. Bununla bağlı Azərbaycan Prezidenti təbrikində bildirmişdir: "Doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük". Əlbəttə ki, bu böyük əhəmiyyətə malikdir.

"Azerspace-1" peyki Afrika, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə 50-dən artıq ölkəni birləşdirən məkanda mühüm informasiya ötürücüsü roluna malikdir. Mənbələrdə qeyd olunduğu kimi, çəkisi təxminən 3 200 kiloqram olan "Azerspace-1" Malayziyanın "Measat Satellite Systems" şirkəti tərəfindən istifadə olunan və "Azərkosmos" ASC-yə icarəyə verilən 46° Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşir. Peykimizin istismar müddəti azı 15 il təşkil edir.

## 450 MLN. DOLLARDAN ÇOX GƏLİR GƏTİRİLƏCƏK

Ötən müddətdə uğur əldə edilib. 2014-cü ildən "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Həmçinin, tələb və rəqabətin artması, peyk tutumlarının bazar qiymətlərinə uyğun təklif olunması "Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə, eləcə də Livan, əfqan və ərəb bazarında fəaliyyət göstərməsinə şərait yaradıb. Hazırda "Azərspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə yüzdən artıq televiziya kanalı yayımlanır. "Azerspace-1" peyki regionda kifayət qədər tanınıb. Hazırda "Azerspace-1" peykinin resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadədədir. Azərbaycanın müdafiə və hərbi potensialının gücləndirilməsi işində "Azərsky" peykinin də xüsusi rolu vardır.

Məlumdur ki, Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə vəd edir. 2018-ci ilin sentyabr ayında orbitə buraxılan "Azerspace-2" peyki kommersiya istifadəsinə 2019-cu ildən başlanılıb və qısa bir müddətdə – iki il ərzində istifadəsindən 40 mln. ABŞ dolları gəlir əldə edilib. Vurğulayaq ki, layihə 190 mln. dollara başa gəlib. Peykin istismar müddəti isə 20 ildir. Onu da bildirək ki, peykin fəaliyyəti dövründə 450 mln. dollardan çox gəlir gətirməsi nəzərdə tutulub.

Ölkəmizi daha böyük uğurlar gözləyir. Peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardır. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan, qısa müddət ərzində, dünyanın kosmik klubunun dəyərli üzvünə çevrilibdir. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı uğurlu gələcəyimizin təminatıdır.

***Zümrüd BAYRAMOVA***

TƏHLİL

# Gürcüstan-Aİ qarşıdurması böyüyür



***Avropa Parlamenti Gürcüstan hakimiyyətinə qarşı daha bir qətnamə qəbul edib. Onun lehinə 444, əleyhinə isə 72 deputat səs verib. Bununla bağlı Avropa Parlamenti digər məsələlərlə yanaşı, Aİ ilə bu ölkə arasında vizasız rejimin ləğv edilməsini, habelə onun hakim elitasının üzvlərinə qarşı sanksiyaların tətbiqini təklif edir.***

Avropa Parlamentinin üzvləri tamamilə Gürcüstan prezidenti Salome Zurabişvilinin və "Gürcü arzusu"nun digər əleyhdarlarının bəyanatlarına əsaslanan qətnamə hazırlayıblar. Nəticə müxalifətin hakimiyyətə olan bütün iddialarının qısaca təkrarlanması oldu. Burada saxtakarlıqlar, seçicilərə təzyiqlər, Tbilisinin Moskvaya doğru kursu, seçkilər ərəfəsində qəbul edilmiş avtoritar qanunlar və sair qeyd olunur. Söhbət araşdırmadan yox, qətnamədən getdiyindən bu cür qiymətləndirmələrin ədalətli olmasına dair hər hansı sübut təqdim etməyə ehtiyac yox idi. Bu, müxalifət üçün çox əlverişlidir, çünki bir ay ərzində heç nə tapa bilməyiblər.

Nə olursa olsun, Avropa Parlamenti bütün Aİ üzvlərini "Gürcüstanda demokratik geri çəkilmələrə, seçki qanunları və standartlarının pozulmasına, inzibati sui-istifadələrə və dövlət təsisatlarından sui-istifadəyə görə məsuliyyət daşıyan məmurlara və siyasi liderlərə" qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağırıb. Söhbət ilk növbədə baş nazir İrakli Kobaxidze, Tbilisi meri Kaxa Kaladze, parlamentin spikeri Şalva Papuaşvili, "Gürcü arzusu"nun sədri İrakli Qaribaşvili və partiyanın təsisçisi Bidzina İvanişvilidən gedir. Bundan əlavə, eyni tədbirlər siyasi motivli hökmlər çıxaran bütün hakimlərə şamil edilməlidir.Avropa Parlamenti həmçinin "demokratik idarəçilik və azadlıqlar sahəsində Aİ standartlarına əməl edilmədiyi güman edilərsə, Gürcüstanın vizasız statusuna onun dayandırılması ehtimalı ilə yenidən baxılmasını" təklif edib. Lakin qətnaməyə əsasən, respublikada demokratiya çoxdan silinib, ona görə də ekspert rəyi boş formallığa çevrilməlidir. Bununla paralel olaraq, Avropa Parlamenti "Gürcüstan hökuməti və parlamenti ilə Aİ səviyyəsində rəsmi təmasların ciddi şəkildə məhdudlaşdırılmasını" zəruri hesab edib.Avropalı deputatlar Brüsselin Tbilisiyə ayırdığı maliyyə yardımını da unutmadılar. Onlar Gürcüstan hakimiyyəti üçün nəzərdə tutulan əvvəllər dondurulmuş 120 milyon avronun yerli qeyri-hökumət təşkilatlarına, o cümlədən mediaya köçürülməsini təklif ediblər.



Bu yolla Avropa Parlamentinin üzvləri Gürcüstan vətəndaş cəmiyyətinin inkişafına kömək edəcəklərinə ümid edirlər. Qətnamə Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilinin "humanitar əsaslarla" azad edilməsinə çağırışla başa çatır.Bu arada Gürcüstan parlamenti Kobaxidzenin rəhbərlik etdiyi yeni hökuməti təsdiqləyib. "Bizim vəzifəmiz Avropa İttifaqına doğru irəliləməkdir. Bu yol çətin olacaq. Qarşıda bizi təxminən altı il gözləyir. Məqsədimiz 2030-cu ilə qədər Avropa İttifaqına üzv olmaqdır. Aİ-nin öz şərtləri var və biz onları əvvəldən axıra kimi nəzərə almalıyıq. Təbii ki, biz ölkəmizin milli maraqlarına zidd olmayan bütün o şərtləri qəbul etməyə hazırıq və burada ləyaqətlə bağlı xətt dayanır. Avropa İttifaqı da bizim ləyaqətimizə hörmət etdiyini sübut etməlidir", - deyə yenidən təyin olunmuş baş nazir bildirib. Kobaxidze eyni zamanda vurğulayıb ki, Aİ Gürcüstana öz hörmətini nümayiş etdirməlidir. Xüsusilə, Brüssel gürcülərin milli maraqlarını və ənənəvi dəyərlərini qorumalıdır.Düzdür, hətta Avropa Parlamentinin iclası ərəfəsində Almaniyanın Gürcüstandakı səfiri Peter Fişer 2023/24-cü ilin qışında Gürcüstan-Almaniya münasibətlərinin deqradasiyaya uğradığını bildirmişdi. Onun sözlərinə görə, o zaman respublika hökuməti Berlin və Tbilisinin artıq yaxşı dost və tərəfdaş olmadığını qərara alıb. "Biz yalnız faktlarla mühakimə edirik. Bizim tərəfdaşlığımız Gürcüstanın Avro-Atlantik strukturlara inteqrasiya etmək istəyinə əsaslanır...

Lakin Gürcüstan hakimiyyətinin yaratdığı faktlar bu kursa ziddir, çünki AB-yə daxil olmaq istəyirsənsə, Avropa qanunvericiliyini qəbul etməlisən. Çox sadədir. Bu baş verdikdə, siz üzv olacaqsınız. Bu baş verməyincə, siz onun üzvü ola bilməzsiniz, çünki Aİ-nin mahiyyəti ondan ibarətdir ki, bütün Aİ-yə üzv dövlətlər eyni qanunvericiliyə malikdirlər", - Fişer vurğulayıb."Gürcü Arzusu"nun anti-Avropa siyasətinin nəticələrinə misal olaraq diplomat "Heidelberg Cement"in Gürcüstan bazarını tərk etməsini göstərib. Fişer vurğulayıb ki, bütün Gürcüstan bir alman şəhəri ölçüsündədir, ona görə də bu, özlüyündə Almaniyadan olan şirkətlər üçün o qədər də cəlbedici deyil. Əvvəllər onlar respublikaya daxil olublar, çünki Tbilisi Aİ-yə daxil olmağa çalışırdı, lakin indi bu nəzərə çarpmır, ona görə də heç bir stimul qalmayıb.Kobaxidze diplomata "Almaniyanın Gürcüstanda səfiri yoxdur" deyə cavab verib. Eyni zamanda, baş nazir vurğulayıb ki, o, rəsmi səviyyədə müvafiq qərar qəbul etmək niyyətində deyil, çünki bu, Fişer üçün çox böyük şərəf olardı.Geocase mərkəzinin rəhbəri Viktor Kipiani bildirib ki, Avropa Parlamentinin qətnaməsi "Gürcü arzusu"nu və Aİ-ni geri dönüşü olmayan nöqtəyə yaxınlaşdırıb. "Rəsmi Tbilisinin reaksiyasının necə olacağını gözləmək lazımdır. Bunun sırf neqativ olacağı aydındır, lakin məmurların yalnız ədəbi ifadələrlə dayanacaqları, yoxsa hansısa siyasi və hüquqi nəticələrinin olub-olmayacağı məlum deyil", - Kipiani qeyd edib. Bununla yanaşı, ekspert əmindir ki, "Gürcü arzusu" sanksiyalar təhlükəsinə hazır olub, ona görə də bu, çətin ki, onun üzvləri üçün hər hansı stress yaratsın.Gürcüstanın baş naziri İrakli Kobaxidzenin bəyanatından sonra polis küçələrə çıxan etirazçıların qarşısını almağa çalışır. Tbilisidə etirazçıları dağıtmaq üçün polis su şırnaqlarından və gözyaşardıcı qazdan istifadə edib. Etirazçılar hakimiyyətin Aİ-yə üzvlüklə bağlı danışıqları təxirə salmaq qərarını qarşı çıxıblar. Gürcüstanın baş naziri İrakli Kobaxidzenin Aİ-yə üzvlük danışıqlarını 2028-ci ilə qədər təxirə salmaq qərarını elan etməsindən sonra minlərlə gürcü Tbilisidə parlament binası qarşısında etiraz aksiyası keçirib. Dinc şəkildə başlayan nümayiş etirazçılarla polis arasında toqquşmaya çevrilib. Hüquq-mühafizə orqanları izdihamı dağıtmaq üçün su şırnaqlarından və gözyaşardıcı qazdan istifadə edib.



Shakh Aivazov (AP)

Yaralanan və saxlanılan nümayişçilərin olduğu bildirilir.Kobaxidzenin bəyanatı Avropa Parlamentinin Gürcüstanla bağlı qətnamə qəbul etdiyi gün verilib. Avropalı deputatlar irimiqyaslı qanun pozuntularını əsas gətirərək, hakim "Gürcü arzusu" partiyasının qələbəsi ilə nəticələnən seçkiləri tanımayıblar. Etirazçılar qeyd ediblər ki, hakimiyyət gürcü xalqının iradəsinin əleyhinə gedirlər və bizi SSRİ-yə qaytarmaq istəyirlər, lakin bu, heç vaxt baş verməyəcək, çünki gürcü xalqı buna heç vaxt imkan verməyəcək.Avropa Parlamenti Tbilisini bir il ərzində beynəlxalq nəzarət altında yeni seçkilər keçirməyə çağırıb. Bundan əlavə, Aİ Gürcüstana büdcə dəstəyinin azaldılmasını elan edib və qanunvericilərin fikrincə, bu, ölkəyə zərər verə bilər. "Güclü Gürcüstan" koalisiyasının təmsilçisi Anna Dolidze: "Onlar AB-dən heç bir maliyyə almayacaq, bu o deməkdir ki, onlar Gürcüstan vətəndaş cəmiyyətinə və mediasına ayrılan yüz milyonlarla vəsaitin qarşısını alacaqlar, bu ölkədə qalan hər hansı azadlıq adalarını boğacaqlar".Müxalifət yeni parlamentin legitimliyini tanımaqdan imtina etdiyi və onun iclaslarını boykot etdiyi üçün Kobaxidze baş nazir olaraq qalır. Gürcüstan parlamenti yeni nazirlər kabinetini təsdiqləsə də, müxalifətin yerləri boş qalıb. Avropa Parlamenti Gürcüstanda seçki manipulyasiyası ilə bağlı iddiaların müstəqil beynəlxalq araşdırmasını dəstəkləyərək, Aİ, onun üzv dövlətləri və beynəlxalq ictimaiyyəti onları tanımamağa çağırıb. Öz növbəsində Gürcüstanın baş naziri bəzi avropalı siyasətçiləri seçkilərə müdaxilədə ittiham edib. O bildirib ki, Tbilisi 2028-ci ilin sonuna qədər Aİ-nin büdcə qrantlarından imtina edir. Bu vaxta qədər, Kobaxidzenin sözlərinə görə, Gürcüstan iqtisadi baxımdan 2030-cu ildə Aİ-yə daxil olmaq üzrə danışıqlara başlamağa hazır olacaq.

### Bu arada...

Brüssel hesab edir ki, bir il ərzində parlament seçkiləri yenidən beynəlxalq nəzarət altında keçirilməlidir. Gürcüstanın baş naziri İrakli Kobaxidze ölkənin Aİ-yə üzvlük müraciətini 2028-ci ilin sonuna qədər dayandırdığını açıqlayıb. Bu açıqlama Avropa Parlamentinin oktyabrın 26-da Gürcüstanda keçirilən parlament seçkilərini pisləyərək seçkilərin nə azad, nə də ədalətli olmadığını bildirməsindən sonra verilib. Kobaxidze öz bəyanatında Gürcüstanın Avropa ölkəsi olduğunu və "bizim məsuliyyətimiz Gürcüstanı Avropa ailəsinin tamhüquqlu üzvü etməkdən ibarətdir", lakin "Gürcüstan və Aİ arasında münasibətlər ikitərəflidir və yalnız ikitərəfli ola bilər" deyib: "Biz uzun tarixə malik olan qürurlu və özümüzə hörmət edən bir xalqıq, ona görə də Avropa İttifaqına inteqrasiyanı Avropa İttifaqının bizə göstərməli olduğu xidmət kimi qəbul etməyimiz qətiyyən qəbuledilməzdir".Kobaxidze hökumətin Brüsseldən gələn hər hansı maliyyədən imtina edəcəyini də bildirib. Bundan əvvəl Avropa İttifaqı "xarici agentlər" qanunu və hakim "Gürcü Arzusu" partiyasının qəbul etdiyi və antidemokratik hesab edilən digər qərarlar səbəbindən Gürcüstana bütün büdcə dəstəyini dayandıracağını açıqlamışdı.Qeyd etdiyimiz kimi, Kobaxidzenin bəyanatlarından sonra Tbilisidə və Gürcüstanın digər şəhərlərində etiraz aksiyaları başlayıb. Müxalifət yeni parlamentin legitimliyini tanımaqdan imtina etdiyi və onun iclaslarını boykot etdiyi üçün Kobaxidze baş nazir vəzifəsində qalacaq. Avropa Parlamenti hakim "Gürcü Arzusu" partiyasını ölkədə demokratiyanın tənəzzülünə görə tənqid edən, seçicilərin təhdid edilməsi, səslərin manipulyasiyası, müşahidəçilərə və mediaya müdaxilə kimi ciddi seçki pozuntularını əsas gətirən qətnamə qəbul edib. Avropa Parlamentinin deputatları seçkilərin nəticələrini etibarsız elan edib və beynəlxalq ictimaiyyəti onları tanımamağa çağırıblar. Avropalı qanunvericilər həmçinin Aİ-ni Gürcüstanın baş naziri və yüksək vəzifəli məmurlarına qarşı sanksiyalar tətbiq etməyə çağıraraq, Tbilisi hökumətinin siyasətinin ölkənin Avro-Atlantik inteqrasiya məqsədlərinə uyğun gəlmədiyini iddia ediblər.Parlament Gürcüstanda seçki manipulyasiyası ilə bağlı iddiaların müstəqil beynəlxalq araşdırmasını dəstəkləyərək, Aİ və onun üzv dövlətlərini demokratik geri çəkilmələrə, seçki qanunlarının pozulmasına və dövlət təsisatlarından sui-istifadəyə görə məsuliyyət daşıyan Gürcüstan rəsmiləri və siyasi liderlərinə qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağırıb. Parlamentarilər həmçinin Rusiyanın Gürcüstanda demokratik proseslərə müdaxiləsini, o cümlədən müxalifətin Qərbin göstərişi ilə ölkəni Rusiya ilə müharibəyə aparacağını yalan hesab edən Qlobal Müharibə Partiyasının sui-qəsd nəzəriyyəsini yaymaq cəhdlərini pisləyiblər.

***V.VƏLİYEV***



# Korsika problemi: Fransa özünü ifşa edir








***Korsika xalqı ilə Fransa hökumətləri arasında əsrlər boyu davam edən anlaşılmazlıq və gərginliklər mərkəzi hakimiyyəti narahat edən əsas məsələlərdən biri olub. Əksər hallarda əvvəlki Fransa hökumətləri korsikalı həmkarları ilə ən həssas məsələlərdə kompromis tapmağı bacarırdılar. Lakin bu dəfə hər şey fərqlidir. Korsika müxalifətinin fikrincə, son illər adada fərqli düşünən insanlara qarşı repressiyalar güclənib.***

Bu arada xatırladaq ki, 2024-cü il yanvarın 28-də Korsikada 700-ə yaxın insan müstəqillik uğrunda mübarizə aparan strukturları və fəalları birləşdirən, Fransa müstəmləkə hökmranlığına qarşı mübarizəyə sadiqliyini təsdiqləyən yeni "Nazione" hərəkatını təsis edib. Başqa ölkələrin daxili işlərinə kobud müdaxilələr etməyə çalışan, kağız üzərində demokratik adlanan rəsmi Paris Korsikada insanların fikirlərini azad şəkildə ifadə etmək hüququna hörmət göstərməyərək, hərəkatın yaranmasından iki gün sonra "Nazione"nin fəallarına qarşı təqiblərə başlayıb. Yanvarın 30-da "Nazione"nin iki fəalı Fransa Milli Terrorla Mübarizə Prokurorluğunun göstərişi ilə həbs edilərək, əvvəlcə Borgu hərbi düşərgəsinə, oradan isə terrorçu kimi Parisə aparılıb. Fransa polisi "Nazione"nin fəallarının evlərinə hücum çəkərək qapıları partlayıcılarla dağıdıb, uşaqlarının gözü önündə atalarına fiziki zor tətbiq edib, evlərini dağıdıb. Polisin qanunsuz təqibləri bu gün də davam edir və Korsika xalqını qorxutmaq məqsədi daşıyır. Keçmiş siyasi məhbusları bir araya gətirən "Patriotti" kollektivi və siyasi dustaqları müdafiə edən "Associu Sulidarita" assosiasiyaları Korsika xalqını bunlara qarşı etiraza çağırır. "Patriotti" kollektivinin sözçüsü Jan-Filip Antolini bildirib: "Korsika xalqının elementar, fundamental hüquqlarının tanınmasını tələb edirik. Bu gün bu hüquqlar tanınmır. Xalqımızın ona məxsus bu torpaqlarda ləyaqətlə işləməsini tələb edirik. Fransa dövləti Korsikaya miqrantlar yerləşdirməklə adanın demoqrafik tərkibini dəyişir. Son illər ərzində Korsikanın əhalisinin sayı 40 faiz artıb və bu, yalnız miqrantların gəlməsi hesabına baş verib. Hansı ölkə belə vəziyyəti qəbul edər?! Bu, xalqımızın, onun dilinin, mədəniyyətinin yoxa çıxmasına aparır. Ona görə xalqımızın hüquqlarının tanınmasını istəyirik".

Bu günlərdə Fransa məhkəməsi Aralıq dənizindəki adanın yerli məclislərində Korsika dilinin istifadəsini qadağan edib ki, bu da onun müstəqillik hərəkatına zərbədir. Marsel İnzibati Apellyasiya Məhkəməsinin qərarında deyilir ki, ölkənin məclislərində fransız dilindən başqa hər hansı bir dilin istifadəsi konstitusiya ilə qadağandır. Məhkəmə 1958-ci il Fransa Konstitusiyasından sitat gətirərək bildirib: "Respublikanın dili fransızcadır və dövlət qulluğunda olan hər kəs tərəfindən istifadə edilməlidir". Fransada hələ də korsika, elzas, bask, breton və digərləri daxil olmaqla onlarla regional dildə danışılır. İnqilabdan bəri Fransa hökumətləri bu dilləri məhdudlaşdırmağa çalışıb, çünki onların Parisdən daha çox siyasi muxtariyyət istəyinə səbəb olduğu düşünülüb. Keçən həftə prezident Emmanuel Makron "regional dillərin milləti bölmək üçün alət olduğunu" bəyan edib. Göründüyü kimi, 150 mindən artıq insanın danışdığı Korsika dilini məhv etmək siyasəti yürütməklə Korsika xalqının milli kimliyini unutdurmağa çalışan Fransa insan haqları və milli azlıqların hüquqları ilə bağlı götürdüyü beynəlxalq öhdəlikləri açıq-aşkar və güc tətbiqi ilə pozmaqda davam edir. Fransa öz ərazisində yaşayan xalqların milli kimliyini inkar edir, yalnız "fransız" anlayışını qəbul edir ki, bunun özü şovinizmdir.

Qeyd edək ki, Napoleon Bonapartın doğulduğu, dilinə və mədəniyyətinə görə Fransanın digər bölgələrindən fərqlənən, coğrafi baxımdan İtaliyaya daha yaxın olan Korsika bu günə qədər qaynar ictimai-siyasi proseslərə ev sahibliyi edib. Mərkəzi hakimiyyətin hədəfinə çevrilən Korsika Fransanın 18 bölgəsindən biri sayılır. 350 min əhalisi olan ada məhdud muxtariyyəti təmin edən xüsusi regional status ilə idarə olunur. Fransanın ən yoxsul bölgəsi olan Korsika adasının sakinlərinin tələbləri bəllidir - muxtariyyətin genişləndirilməsi, siyasi məhbuslara amnistiya, Fransa Konstitusiyasında Korsikaya xüsusi yer ayrılması, Korsika dilinin Konstitusiyada rəsmi dil kimi təsbit olunması və s. Bir fakti da qeyd edək ki, 1755-ci ildə uzun illər davam etmiş azadlıq mübarizəsindən sonra Paskal Paoli tərəfindən əsası qoyulmuş müstəqil Korsika Respublikası mövcudluğunun ilk illərində bir sıra tarixi siyasi "ilk"lərə imza atıb. Onun Konstitusiyası maarifçilik dövrünün prinsiplərinə uyğun şəkildə hazırlanmış müasir tipli ilk Avropa Konstitusiyası idi. Elə həmin Konstitusiyada Yer üzünün tarixdə ilk dəfə qadınlara seçki hüququ tanınmışdı. Korsika Respublikası dünyanın ilk müasir demokratiyası hesab olunurdu. Lakin demokratiya və azadlıq erasının ilk qaranquşu çox yaşamadı. Cəmi 14 il sonra, 1769-cu ildə Fransa adanı işğal edib, Korsikanı özünün müstəmləkəsi elan etdi. Elə o zamandan etibarən korsikalılar öz azadlıqları uğrunda mücadilə aparır, lakin hələ də Fransa işğalından yaxa qurtara bilmirlər. İki əsrdən çoxdur ki onların azadlıq mübarizəsi Fransa hökuməti tərəfindən amansızlıqla boğulur, ictimai fəallar uydurma ittihamlar əsasında həbs edilir, dözülməz fiziki və mənəvi işgəncələrə məruz qalırlar. Hətta həbsxanadan buraxıldıqdan sonra da təqiblər davam etdirilir, onların adları terrorçular siyahısına salınır və daimi polis nəzarəti altında yaşamalı olurlar.

***Sevinc Azadi***



# Aleksey Fenenko: “Ermənistan regionda təhlükəsizliyi pozmaqda davam edir”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər,habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.*




***“Azərbaycan Rusiya üçün Cənubi Qafqazda ən sabit və şəffaf dövlətdir və Avrasiyada təhlükəsizliyin möhkəmləndirilməsinə böyük töhfə verir”***




Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Fenenko “Moskva-Baku” portalına müsahibəsində Ermənistan siyasətinin Avrasiya məkanına təsirini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.





**- Aleksey Valerieviç, Astanada KTMT sammitində Vladimir Putin bildirib ki, Ermənistanla KTMT arasında mövcud vəziyyət bu strukturun hər hansı fəaliyyəti ilə bağlı deyil, daha çox Ermənistandakı daxili siyasi vəziyyət və Qarabağ ətrafındakı böhranla bağlıdır. Bundan əlavə, Belarus prezidenti Aleksandr Lukaşenko həmin sammitdə bəyan edib ki, Ermənistanın orada olmaması regiondakı və strukturun özündəki vəziyyətdən xəbər verir. Son günlər həm Rusiya FSB, həm də Rusiya Xarici Kəşfiyyat Xidməti yenidən Qərbin Cənubi Qafqaza və xüsusən də Ermənistana təsir cəhdlərindən danışır. Rusiya Xarici Kəşfiyyat Xidməti bəyanat yayıb ki, ABŞ Ermənistanın hazırkı hakimiyyətinin qərbyönlü kursun həyata keçirməsinə mahiyyətcə nəzarət etmək üçün Ermənistan parlamentinə qərbyönlü partiyaları daxil etmək niyyətindədir...**

- Bu, əslində amerikalıların və fransızların əldə etmək istədiklərinin nəticəsidir. Ona görə də ABŞ-ın Ermənistan parlamentinə daha radikal qərbyönlü partiyaları gətirməyə çalışacağı tamamilə gözlənilən addım idi. Məsələ burasındadır ki, erməni cəmiyyəti bir gün hakimiyyətə Ermənistanın yenidən silahlanmasına və ölkənin Qarabağın qisasını almasına kömək edəcək siyasətçinin gələcəyi fikrindən əziyyət çəkir. Bu cəmiyyət isə bu işdə Ermənistana hansısa böyük himayədarın kömək edəcəyini gözləyir. Ancaq bunların hamısı bir illüziyadır və başqa heç nə yoxdur. Ona görə də erməni cəmiyyəti özü həvəslə ABŞ-ın qucağına qaçır ki, belə bir fövqəldövlət Ermənistana Qarabağın qisasını almağa hansısa yolla kömək edəcək.

Bu, daha bir situasiyaya əsaslanır: Ermənistanda son vaxtlar Qərb qrantları hesabına öz taleyini sırf ABŞ-la bağlayan bütöv siyasətçilər nəsli yetişib. Və bu siyasətlər sırf Amerika doqmalarına, yəni “demokratiya”nın yayılmasına, ABŞ-ın güclənməsinə və qloballaşmaya yönəlib. Və bu iki cərəyan- liberal və millətçi- Ermənistanda çox yaxşı yanaşı yaşayır və bir-biri ilə üst-üstə düşür. Əsas odur ki, İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətində əsas günahkarın Rusiya olması fikrini qəbul etdirsinlər. Xüsusi yanaşma ilə bu gündəm aktiv şəkildə götürülür və yayımlanır.

**- Belə çıxır ki, Qərb Paşinyana şübhə edir, o, Ermənistanda Qərblə yaxınlaşmanın intensivliyi və Qərbin tapşırıqlarının yerinə yetirilməsi baxımından daha radikal birini hakimiyyətə qoymaq istəyir?**

- Əlbəttə. Paşinyan ara fiqurdur.



Onlar gürcü ssenarisini təkrarlamaq istəyirlər. Axı Gürcüstanda 1990-cı illərdə Qərb və Rusiya istiqamətləri arasında vəziyyəti balanslaşdıran Şevardnadze var idi. O, qərbli hərbi müşavirləri və Qərb diplomatlarını içəri buraxaraq, Rusiya əleyhinə bəyanatlar verdi. Ancaq eyni zamanda Rusiya ilə dialoqu davam etdirdi.

Nəticədə Gürcüstanda Qərb tərəfindən yeni nəsil yetişdirilən kimi təşkil olunan “Qızılgül İnqilabı” Şevardnadzeni uzaqlaşdırdı və daha radikal Saakaşvilini “taxt”a oturtdu. Yəqin ki, Qərb Paşinyanla bağlı oxşar bir şeyi təkrarlamaq istəyir. Axı, bundan başqa, Rusiyanın dominant olduğu assosiasiyalarda zəif halqa axtarır və onu qoparmağa çalışırlar. Hazırda bu zəif halqa ABŞ-ın Rusiyadan və rusiyayönlü strateji birliklərdən uğurla ayırdığı Ermənistandır.

Paşinyan artıq 6 ildir ki, Ermənistanda hakimiyyətdədir-Qərbin fikrincə kifayət qədər kifayət qədər müddətdir. Qərbə Ermənistanda hakimiyyətdə onunla yaxınlaşma baxımından daha fanatik olan, respublikanı KTMT-dən çıxarıb anti-Rusiya tramplininə çevirəcək biri lazımdır.

Eyni zamanda, Paşinyan Rusiya ilə dialoqu Qərbin ona diktə etdiyi üçün deyil, siyasi cəhətdən sağ qalmağa çalışdığı üçün davam etdirir. Onun qarşısında aqressiv qisas ideyasına qapılan bir cəmiyyət var. Amma o, həm də qorxur ki, Moskva ilə dialoqu gücləndirsə, Qərb onu sadəcə bayıra atacaq. Digər tərəfdən, o, Rusiya ilə dialoq aparmasa, bəlaya düçar olacağına inanır.

**Qərb isə düşünür ki, intiqam yanğısına qərq olmuş siyasətçi tapa bilsə, belə mötədil Paşinyana nə ehtiyac var?**

Paşinyan Qərbdən verilən vədlər müqabilində KTMT-dən imtina edir. Qərb isə İrəvanı sıxışdırır, sanki deyir ki, Rusiya ilə aranı kəsmək və Ermənistan ordusunun yenidən silahlanmasına kömək etmək kifayətdir. “Rusiya ilə əlaqəni kəsmək kifayətdir və biz Ermənistanda Amerika və ya Fransa hərbi bazası yaradaq. Biz Ermənistana Avropa İttifaqında müəyyən status verməyə hazırıq”. Daha nə vədlər verə biləcəklərini bilmirlər. Yəni, Paşinyanı boş vədlərlə qidalandırırlar. Aydındır ki, bütün bu liberal qabıqları götürüb coğrafi xəritəyə baxsanız, görərsiniz ki, Ermənistanla Qərbin ən azı sırf coğrafi səbəblərə görə heç bir əlaqəsi ola bilməz. Amma Paşinyan Ermənistanda bir çoxları kimi bunun əksinə ümid edir.

**- Polşa prezidenti Anjey Duda Aİ missiyasının “monitorinq etdiyi” Ermənistan-Azərbaycan sərhədində “dürbün diplomatiyası” çərçivəsində özünü tapan çoxsaylı avropalı rəsmilərdən biri oldu...**

- Bu yolla Qərb dövlətləri Ermənistana açıq-aşkar siqnal verirlər: “Buyurun, qərarınızı verin! Biz sizə kömək edəcəyik. Biz sizə yeni, çox daha yaxşı təhlükəsizlik zəmanətləri, yeni, daha yaxşı şəraitlər verəcəyik və bəlkə də Qarabağın geri alınmasına kömək edəcəyik, siz gözləyin”. Göndərdikləri mesaj budur. Paşinyan isə onu alır. Amma reallıqda heç kim Ermənistan üçün döyüşməyəcək. NATO-da, yeri gəlmişkən, Türkiyə var ki, onun ordusu struktur güclü ordulardan biridir və Qərblə Ermənistanın Azərbaycandan heç bir qisas almasına imkan verməyəcək.

**- Paşinyan Aİ-nin hazırkı sədri kimi qəfildən Ali Avrasiya Şurasının iclasının Ermənistan ərazisindən Sankt-Peterburqa keçirilməsini xahiş etdi. Bu nə ilə bağlıdır?**

- Bu, Ermənistan hakimiyyətinin Qərbə hesabat verməli olacağı çətin vəziyyətə düşmək istəməməsi ilə bağlıdır. Ötən ilin oktyabrında respublika Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya edib. Bu o deməkdir ki, ölkə bu məhkəmənin göstərişlərinə əməl etməyə borcludur. Yada salaq ki, 2023-cü ilin martında BCM Rusiya prezidentinin həbsinə order verib. İndi Qərbdə hər dəfə BCM-ə qoşulan və Vladimir Putinin səfər etdiyi ölkələrdən əmrə əməl etməyi tələb edirlər.

**- Cənubi Qafqazda mövcud siyasi vəziyyət haqqında nə deyə bilərsiniz?**

- Bu gün Azərbaycan Rusiya üçün Cənubi Qafqazda ən sabit və şəffaf dövlətdir və Avrasiyada təhlükəsizliyin möhkəmləndirilməsinə böyük töhfə verir. İndiki situasiyadan göründüyü kimi, Gürcüstanda da əhali Qərbin tələb etdiyi eskalasiya əvəzinə sakitliyi və sabitliyi seçib. Ən azından vəziyyəti dəyişmək üçün heç bir ilkin şərt görmürəm. Amma Ermənistan regionda daha mürəkkəb halqa olaraq qalır və Avrasiyanın təhlükəsizliyini pozur.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
30 noyabr
2024-cü il

# Valideyn himayəsindən məhrum olmuş uşaqlara birdəfəlik müavinət veriləcək



*Valideyn himayəsindən məhrum olmuş uşaqlara birdəfəlik müavinət veriləcək. AZƏRTAC xəbər verir ki, bu məsələ parlamentin noyabrın 29-da keçirilən iclasının gündəliyinə daxil edilmiş "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.*

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunun 8-ci maddəsinə əsasən, sözügedən kateqoriyadan olan uşaqlar, habelə onların arasından olan şəxslər ilk dəfə işə düzələn zaman orta aylıq əməkhaqqının beş mislindən az olmayan miqdarda birdəfəlik müavinətlə (5017,5 manat), habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş normalara uyğun paltar, ayaqqabı, yumşaq ləvazimat, avadanlıq və ya öz arzularına əsasən onların əvəzinə verilən pul kompensasiyası ilə (265 manat) təmin olunurlar.

Daha effektiv sosial təminat prinsipinin tətbiq edilməsi və digər qanunvericilik aktlarına uyğunlaşdırılması məqsədilə paltar, ayaqqabı, yumşaq inventar və avadanlıqların və ya onların əvəzinə verilən pul kompensasiyasının məbləğinin də sözügedən müavinətin tərkibinə daxil edilməklə birdəfəlik müavinətin hazırda ölkə üzrə orta aylıq nominal əməkhaqqının məbləği nəzərə alınmaqla 6000 manat müəyyən edilməsi təklif olunur.

Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiqlənib.

# Yanvarın 29-u Azərbaycanda iş olmayacaq

*Gələn il yanvarın 29-u qeyri-iş günü olacaq. SİA-nın məlumatına görə, 29 yanvar 2025-ci il tarixdə bələdiyyə seçkiləri keçiriləcək. Seçki Məcəlləsinin 8.2-ci maddəsinə əsasən, səsvermə günü seçki keçirilən ərazidə iş günü hesab olunmur. Beləliklə, 2025-ci il yanvarın 29-u - çərşənbə günü qeyri-iş günü olacaq.*



## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycanda Çin maşınları niyə kəskin artıb?



EKSPERT AYDINLIQ GƏTİRDİ

*"Ölkədə Çin istehsalı olan maşınların sayının artması müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti İlqar Hüseynli deyib. Onun sözlərinə görə, bu sürət Çin avtomobil bazarının dünyada gedən tendensiyasının nəticəsidir: "Yəni, bu yalnız Azərbaycanda deyil, Çin avtomobil istehsalı dünya brendi olaraq dünya bazarına daxil olub. Hətta bilirsiniz ki, Almaniyanın nəhəng "Volkswagen" şirkəti öz istehsal həcmini kiçiltdi. Bunun da birinci səbəbi Çin avtomobillərinin dünya avtomobil bazarında əhəmiyyətli rola malik olmasına istinad edir".*

İlqar Hüseynli sözlərinə belə davam edib: "Çin avtomobilləri həm də dizayn baxımından yeniliklə zəngindir. Eyni zamanda, Azərbaycanda avtomobil bazarında qiymətləri nisbətən uyğunluq təşkil edir. Bilirsiniz ki, sürətlə elektromobillərə keçid artıb və dünyanın prioritetlərindən birinə çevrilib. Azərbaycan istehlakçısı da nəhayət elektromobillərin istehlakına üstünlük verirlər. Bu baxımdan təbiidir ki, Azərbaycan da dünyada baş verən tendensiyanın tərkib hissəsi olaraq öz avtomobil parkını yenilənmiş Çin motifikasiyalarına keçid etməkdə maraqlı görünür".

**Ayşən Vəli**

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700